

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

06 may
2026-cı il,
çərşənbə
№ 078 (7145)
Qiymətı
60 qəpik


## Sülhün memarı Bakıdır...




Bax səh. 3

# 45 ölkədən 447 şirkət...

## Prezident və birinci xanım 19-cu "Caspian Agro Week" və 31-ci "InterFood Azerbaijan" sərgilərində



Bax səh. 2

## Dövlətin və cəmiyyətin vahid amalı - davamlı sülh!

Bax səh. 6



Bax səh. 3

## Heydər Əliyev sosial inkişaf strategiyasının müəllifidir



Bax səh. 4-5

## "Müasir Şəhərsalma Vizyonu: Ənənə və İnnovasiyanın Harmoniyası"



## Cənubi Qafqaza qarşı hibrid plan...

Bax səh. 7

## 10 milyard dollarlıq sərmayə proqramı

Bax səh. 6

## İkinci müharibə fazası Hörmüzdə...



Bax səh. 7

# 45 ölkədən 447 şirkət...

## Prezident və birinci xanım 19-cu "Caspian Agro Week" və 31-ci "InterFood Azerbaijan" sərgilərində










Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Bakı Ekspo Mərkəzində 19-cu Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgi və Forumu - "Caspian Agro Week" və 31-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisi - "InterFood Azerbaijan" ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, kənd təsərrüfatı naziri Məcnun Məmmədov dövlətimizin başçısına və birinci xanıma sərgilər barədə məlumat verdi.

Bildirildi ki, 45 ölkədən 447 şirkətin iştirak etdiyi sərgilərin coğrafiyası bu il daha da genişlənib. İlk dəfə olaraq burada Braziliya, Efiopiya, Şimali Kipr milli pavilyonlarla təmsil olunur. Ümumilikdə isə sərgilərdə Almaniya, Belarus, Braziliya, Cənubi Koreya, Gürcüstan, İtaliya, İndoneziya və Niderlandın milli stendləri var.

"Caspian Agro Week" sərgisi kənd təsərrüfatı texnikası, obyektləri və avadanlıqları, suvarma, qablaşdırma, logistika, elektron kənd təsərrüfatı, innovasiya texnologiyaları, heyvandarlıq, quşçuluq, bitkiçilik, baytarlıq, tullantıların emalı sahələrini əhatə edir. Eyni zamanda, sərgidə "Smart Agro" istiqaməti üzrə süni intellekt, "ağıllı" kənd, startaplar, İT xidmətləri, robototexnika, pilotsuz uçuş aparatları və "green agro" bölmələri nümayiş olunur.

"InterFood Azerbaijan" sərgisində isə qida sənayesi, içkilər, meyvə-tərəvəz, qida texnologiyaları və digər bölmələr üzrə məhsullar və xidmətlər təqdim edilir.

Əsas yeniliklərdən biri indiyədək "Caspian Agro" kimi tanınan sərginin bu ildən "Caspian Agro Week" konsepti çərçivəsində təşkil olunmasıdır. Sərgi ilə yanaşı, konfrans və forumlar, həmçinin innovativ təsərrüfatlara səfərlər təşkil olunacaq.

Dövlətimizin başçısı və birinci xanım "Azərsun Holdinq" şirkətinin stendinə baxdılar. Şirkət "tarladan süfrəyə" prinsipi ilə fəaliyyət göstərərək, müasir avadanlıq və innovativ həllərlə yüksəkkeyfiyyətli kənd təsərrüfatı məhsulları istehsal edir. "Azərsun Holdinq"in fəaliyyəti bölgələrdə on minlərlə insanın daimi və mövsümi işlərlə təminatına imkan yaradır.

Azərbaycanın aqrar sektorunda 10 ildən artıq təcrübəyə malik "Agro Dairy" aparıcı kənd təsərrüfatı və qida şirkətlərindən biridir. Şirkət xammalın istehsalından emalına, logistikasından son məhsulun istehlakçıya çatdırılmasına qədər bütün mərhələləri birləşdirən güclü aqrar-sənaye ekosistemi formalaşdırıb. "Torpaqdan süfrəyədək" prinsipi əsasında qurulan dəyər zənciri məhsulun keyfiyyətini təmin edir.

Almaniyanın "Holmer" şirkəti şəkər çuğunduru yığmaq üçün özüyeriyən kombaynların istehsalında dünya lideridir. "Holmer" innovativ şirkət olmaqla, texnoloji cəhətdən qabaqcıl kənd təsərrüfatı texnikasının istehsalını və satışını həyata keçirir.

İtaliyanın "New Holland" şirkəti kənd təsərrüfatı texnikasının istehsalı sahəsində 130 illik təcrübəyə malikdir. Dünyanın 170-dən çox ölkəsində bu şirkətin məhsulları istifadə olunur. "New Holland" kombaynları və traktorları müasir texnologiyalarla təchiz olunaraq, fermerlərin işini asanlaşdırır, keyfiyyətli biçinlə yanaşı, məhsul yığımını da avtomatlaşdırır.

Rusiyanın "PhosAgro" şirkəti dünyada fosfatəsaslı gübrələrin aparıcı istehsalçılarından biridir. Şirkətin əsas fəaliyyət istiqaməti, eyni zamanda, yüksəkkeyfiyyətli fosfat süxurunun, həmçinin yem fosfatlarının, azot gübrələrinin və ammoniumun istehsalından ibarətdir. Avropanın ən iri fosfatəsaslı gübrə istehsalçısı olan bu şirkət, həmçinin ən böyük yüksəkkeyfiyyətli fosfat süxuru istehsalçısıdır.

Diqqətə çatdırıldı ki, 20 ilə yaxın təcrübəyə malik "Azera Holdinq" əkinçilik, heyvandarlıq, balıqçılıq üzrə aparıcı kənd təsərrüfatı şirkətlərini özündə birləşdirir. Qafqazın ən iri istixana komplekslərinə malik Holdinq həm də işğaldan azad olunmuş ərazilərdə geniş əkinçilik layihələrini uğurla icra edir. Holdinqə daxil olan "Fruitland" şirkəti Azərbaycanda ilk dəfə "Agroland" və "BinəAgro" şirkətlərinin 200 hektara yaxın əraziyə malik istixanalarında ildə 1000 tona yaxın banan yetişdirir.

Sərgidə iştirak edən Türkiyənin "Favo Agro" şirkəti kənd təsərrüfatı texnikası, avadanlıqları və ehtiyat hissələrinin tədarükü sahəsində fəaliyyət göstərən beynəlxalq şirkətdir. "Favo Agro" kənd təsərrüfatı texnikası ilə yanaşı, suvarma, sağım sistemləri və bu məhsullara aid ehtiyat hissələri üzrə həllər təqdim edir. Şirkət, həmçinin Azərbaycanda Favo və Aksan markaları ilə kənd təsərrüfatı texnikası və heyvandarlıq avadanlıqlarının istehsalını həyata keçirir.

Qeyd edildi ki, "Made in Azerbaijan" brendinin təşviqi üçün əlverişli platforma rolunu oynayan sərgilərə Kənd Təsərrüfatı Nazirliyi təşkilati dəstək göstərir. Nazirlik, həmçinin burada öz stendi ilə iştirak edir. Stenddə aqrar sektorun inkişafına yönəlmiş layihələr, dövlət dəstəyi mexanizmləri, rəqəmsal həllər, innovativ yanaşmalar, "Aqrar sahədə süni zəka", "Dəqiq kənd təsərrüfatında süni intellektin tətbiqi" layihələri, həmçinin startap təşəbbüsləri ilə bağlı məlumatlar təqdim olunur. Burada, eyni zamanda, "ağıllı" kənd təsərrüfatı texnologiyaları, rəqəmsal monitorinq sistemləri, məhsuldarlığın artırılmasına yönəlmiş texnoloji yanaşmalar, işğaldan azad olunmuş ərazilərimizdə kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə verilməsi üzrə nazirliyin həyata keçirdiyi investisiya müsabiqələri ilə bağlı pilot layihə, regionlarda təşkil olunmuş aqrar biznes və məhsul festivalları barədə məlumatlar var.

Bu il sərgilərdə regionlarımızın aqrar və qida sahəsində mövcud imkanları ilə yaxından tanış olmaq mümkündür. Bundan başqa, hər il təşkilatçılar Azərbaycanın müxtəlif bölgələrindən olan fermerlər üçün sərgiyə turlar təşkil edirlər. Bu il 51 bölgədən 500-dən çox fermer sərgilər çərçivəsində ən son sənaye yenilikləri və beynəlxalq təcrübə ilə tanış ola biləcək.

Sərgilər BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Azərbaycanın Qida Təhlükəsizliyi Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi, Sahibkarlar Təşkilatları Milli Konfederasiyası, Azərbaycan Qida və İçki Sənayeçiləri Assosiasiyası və Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyası tərəfindən dəstəklənir.

Sərgidə İspaniyanın "Industrıas Davıd" şirkəti də iştirak edir. Şirkət üzüm, zeytun və meyvə bağları üçün xüsusi texnologiyalı kənd təsərrüfatı avadanlıqları, o cümlədən məhsul yığımı üçün maşınlar istehsal edir.

Dövlətimizin başçısı və birinci xanım "Gürcüstan Milli Qrupu"nun stendində də oldular. Həmişə olduğu kimi, bu dəfə də Gürcüstan sərgidə iştiraka böyük maraq göstərir. Bu ölkədən 10-a yaxın şirkət öz kənd təsərrüfatı məhsullarını təqdim edir.

Kənd təsərrüfatı sistemləri sahəsində ixtisaslaşan İsrailin "AFI Projects" şirkəti kompüterləşdirilmiş təsərrüfat idarəetmə sistemləri, süd fermalarının layihələndirilməsi və tikintisi, müxtəlif növ sağım otaqları və təsərrüfatların yenidən qurulması sahəsində xidmətlər təqdim edir. "AFI Projects" həm böyük fermalar, həm də kiçik təsərrüfatlar üçün əmək və istehsal proseslərini optimallaşdırmağa dəstək verir.

"İtaliya Respublikasının Milli Qrupu"nun stendi ilə tanışlıq zamanı məlumat verildi ki, bu ölkədən olan şirkətlər sərgilərdə iştiraka böyük maraq göstərir. Belə ki, budəfəki sərgilərdə İtaliyanın kənd təsərrüfatı məhsulları və avadanlıqları istehsal edən 20-yə yaxın şirkəti iştirak edir.

Kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan "Az Agromila" şirkəti yeni nəsil gübrə və biopestisit sektorunda uğurla fəaliyyət göstərir. Müasir texnologiyalar təqdim edən şirkət istixana, meyvə-tərəvəz və açıq sahə də daxil olmaqla, kənd təsərrüfatının bütün sahələrində xidmət göstərir.

Niderland Krallığı da sərgiyə böyük maraq göstərir. Bu ölkə sərgidə milli stendlə təmsil olunur. Niderland şirkətləri öz kənd təsərrüfatı məhsullarını burada nümayiş etdirir. Stenddə toxumlar, güllər, istixana üçün avadanlıqlar və digər qida və kənd təsərrüfatı məhsulları təqdim olunur.

Məlumat verildi ki, yerli aqrar şirkət olan "Amofresh" Azərbaycanda münbit torpaqlarda fəaliyyət göstərir, ənənə ilə müasir innovasiyaları birləşdirir. Şirkət ekoloji təmiz regionlarda "Amofresh" brendi altında premium meyvə və tərəvəzlərin becərilməsi ilə məşğuldur. İstehsalın bütün mərhələlərində yüksək keyfiyyətin və təbii dadın təmin olunmasına çalışır.

"METAK" da kənd təsərrüfatı məhsulları istehsal edən yerli şirkətdir. Şirkətin stendində intensiv bağ modeli nümayiş olunur. Bu model il ərzində salınmış intensiv bağın struktur və quruluşuna tam uyğun şəkildə hazırlanıb, ziyarətçilərə bu texnologiyanın üstünlüklərini yerindəcə vizual şəkildə təqdim edir.

İranın "Khazar Electric" şirkəti innovativ həllərə əsaslanaraq kənd təsərrüfatı və tullantıların emalı avadanlıqlarını istehsal edir. Məhsul çeşidinə taxılqurutma, inkubator, kəsimxana, quşçuluq avadanlıqları daxildir.

"Absheron Olive Garden" MMC zeytun yağı və süfrəlik zeytun məhsullarının istehsalı ilə məşğuldur. İstehsal prosesi beynəlxalq keyfiyyət standartlarına uyğun şəkildə təşkil olunub, müasir texnologiyalar tətbiq edilir və məhsulun keyfiyyəti daim nəzarətdə saxlanılır.

Sərgidə maraq doğuran stendlərdən biri də "Şirvan Aqro" heyvandarlıq kompleksinə aiddir. Kompleks ən son texnologiyalarla təchiz edilən və süni intellekt vasitələri ilə idarə olunan müəssisədir. "Şirvan Aqro" Qafqaz regionunda və MDB məkanında ən böyük heyvandarlıq komplekslərindən biridir.

Hazırda "Meysəri" markası ilə tanınan "Şirvan Şərabları" müəssisəsi Azərbaycanın Şamaxı rayonunun Meysəri kəndində yerləşir. O, ölkəmizdə Avropa İttifaqı tərəfindən sertifikat almış ilk orqanik şərab istehsalçısıdır.








Belarus bu dəfə də sərgilərdə fəal iştirak edir. Bu ölkənin şirkətləri qida məhsulları təqdim edirlər. Belarusun sərgidə ümumilikdə 11 şirkəti təmsil olunur. Qeyd olunub ki, bu ölkə 10 ildən çoxdur sərgilərdə iştirak edir.

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi ilə sərgidə KOB-ların bazarlara çıxışına dəstək üçün xüsusi stend təşkil olunub. Stenddə 10-a yaxın KOB subyekti tərəfindən istehsal olunmuş qənnadı məmulatları, şokolad, ət məhsulları, bal, zəfəran və pendir kimi məhsullar nümayiş etdirilir. Prezident İlham Əliyevin Fərmanı ilə 2017-ci ildə yaradılmış Agentlik ölkədə kiçik və orta biznesin inkişafını dəstəkləyərək, kiçik və orta biznes subyektlərinə bir sıra xidmətlər göstərir, dövlət orqanlarının bu sahədə xidmətlərinin əlaqələndirilməsini və tənzimlənməsini həyata keçirir.

"Braziliya Federativ Respublikasının Milli Qrupu"nun stendində ziyarətçilərə əsasən kənd təsərrüfatı məhsulları təqdim edilir. Braziliya pavilyonunda bu ölkənin ət istehsalçısı və ixracatçısı şirkəti məhsullarını nümayiş etdirir. Bundan başqa, Braziliya qəhvəsi istehsal edən müəssisənin məhsulları da sərgidə maraqla qarşılanır.

İndoneziya da sərgiyə maraq göstərən ölkələr sırasındadır. Bu ölkə tədbirə milli stendlə qatılıb. "İndoneziya Milli Qrupu"nun stendində əsasən qəhvə və qənnadı məhsulları təqdim edilir.

Sərgidə Afrika ölkələrinin birgə iştirakı ilə təşkil edilən AFAZ (Africa-Azerbaijan Cooperation) ilk dəfə öz stendi ilə təmsil olunur. Bu stenddə isə Benin, Cənubi Sudan, Efiopiya, Kot-d'İvuar, Kamerun, Nigeriya, Qana, Seneqal, Somali, Tanzaniya və Zambiyadan olan şirkətlər məhsullarını təqdim edir.

Sonra dövlətimizin başçısı və birinci xanım Bakı Ekspo Mərkəzinin həyətində müxtəlif ölkələrin şirkətlərin kənd təsərrüfatı texnikası ilə tanış oldular.

Kənd təsərrüfatı və qida sənayesi üzrə regionun ən böyük sərgiləri olan "Caspian Agro Week" və "InterFood Azerbaijan" bu iki sahədə beynəlxalq əməkdaşlıq, innovasiya və yeni biznes əlaqələrinin inkişafına xidmət edən mühüm platformadır. Bu illər ərzində sərgilər milli brend kimi dünyanın aparıcı beynəlxalq tədbirləri sırasına daxil olaraq, qlobal sərgi təqvimində mühüm yer tutub.

Sərgi həftəsi çərçivəsində kənd təsərrüfatında innovativ həllər, aqrotexnologiyalar, "ağıllı" kənd təsərrüfatı sistemləri, qida emalı texnologiyaları, qida təhlükəsizliyi, logistika və ixrac imkanları üzrə qabaqcıl məhsul və xidmətlər nümayiş etdiriləcək. Bu platforma beynəlxalq təcrübə mübadiləsinin təşviqinə və aqrar-qida sektorunda yeni tərəfdaşlıqların qurulmasına mühüm töhfə verəcək.

# Azərbaycan Avropa İttifaqı üçün vacib tərəfdaşdır

## Prezident İlham Əliyev Avropa İttifaqının ali nümayəndəsinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Prezident İlham Əliyevin Kaya Kallasla görüşləri məmnunluqla xatırlandı, onun 2025-ci ildə ölkəmizə səfəri zamanı əməkdaşlığın genişləndirilməsi ilə bağlı səmərəli müzakirələrin aparıldığı qeyd edildi.

Kaya Kallas Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Antonio Koştaya çatdırmağı xahiş etdi.

Kaya Kallas Antonio Koştanın ölkəmizə səfəri zamanı dövlətimizin başçısı və Avropa İttifaqı Şurasının Prezidenti tərəfindən birgə bəyanatın qəbul edilməsinin, həmin sənəddə Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin strateji xarakterinin vurğulanmasının əhəmiyyətinə toxundu.

Qonaq Azərbaycanın Avropa İttifaqı üçün vacib tərəfdaş olduğunu dedi.

Prezident İlham Əliyev ölkəmizlə Avropa İttifaqı arasında enerji, bağlantılar, təhlükəsizlik, ticarət və digər sahələrdə əməkdaşlığın perspektivlərinə toxundu. Dövlətimizin başçısı Avropa İttifaqının Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri, eyni zamanda, ölkəmizin isə enerji təhlükəsizliyinin təmin olunması baxımından həmişə Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu vurğuladı. Bu xüsusda dövlətimizin başçısı qeyd etdi ki, bu yaxınlarda Azərbaycan qazı Avropa İttifaqının daha iki üzv ölkəsinə - Almaniyaya və Avstriyaya çatıb.



Söhbət zamanı Azərbaycan-Ermənistan sülh prosesinə toxunuldu, ölkəmizin sülh gündəliyinin gücləndirilməsi istiqamətində atdığı addımlar vurğulandı. Azərbaycanla Ermənistan arasında artıq iqtisadi-ticari münasibətlərin yaradıldığı qeyd edilərək, bu xüsusda ölkəmizin Ermənistana gedən tranzit yüklərlə bağlı məhdudiyyəti birtərəfli qaydada aradan qaldırdığı bildirildi. Ötən gün İrəvanda keçirilmiş "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısında Azərbaycan Prezidentinin videobağlantı formatında iştirakı tarixi hadisə kimi dəyərləndirildi.

Görüşdə vurğulandı ki, hazırda Azərbaycanla Avropa İttifaqının gündəliyində rəqəmsal transformasiya, süni intellekt, bərpaolunan enerji və digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər var.

Söhbət zamanı Avropa İttifaqının minatəmizləmə sahəsində Azərbaycana dəstəyi təqdir edildi, TRIPP layihəsinin fəaliyyətə başlaması ilə onun regionda bağlantılar baxımından yaxşı imkanlar yaradacağı qeyd olundu.

Dövlətimizin başçısı və Kaya Kallas Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının perspektivlərini və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə etdilər.

# Sülhün memarı Bakıdır...

## Prosesə mane olmaq istəyənlər fiaskoya məhkumdur

### İlham Əliyev: Avropa Parlamenti ksenofobiya, islamofobiya, antisemitizm, miqrasiya, rəqabətçilik, evsiz insanların məsələsi kimi fundamental problemləri həll etmək əvəzinə, böhtan və yalan yayaraq Azərbaycanı hədəfə alır




Azərbaycanın xarici siyasət kursunun aparıcı prioritetləri milli maraqlar çərçivəsində əməkdaşlıq, beynəlxalq hüquqa hörmət, sülh və sabitlik, ədalətli yanaşma kimi ali dəyərlərə söykənir. Rəsmi Bakı istər çoxtərəfli, istərsə də ikitərəfli əlaqələrdə iqtisadi-siyasi dialoqun genişləndirilməsi, səmimi tərəfdaşlıq kursunun dərinləşdirilməsinin tərəfdarı kimi çıxış edir. Bunun nəticəsidir ki, qalib olduğu halda, Ermənistan ilə sülh prosesinin memarı da məhz Azərbaycandır.

**Azərbaycan qlobal məkanın aparıcı aktorlarındandır...**

Bakı hər zaman çoxtərəfli əlaqələrin inkişafında maraqlı olduğunu ortaya qoyub - istər Asiya, istər Avropa, istərsə də Qlobal Cənub və Afrika ilə münasibətlərin inkişafı ölkəmiz üçün mühüm hədəflərdir. Bu gün Azərbaycan beynəlxalq mühitdə mühüm oyunçu statusu ilə həm enerji təhlükəsizliyinin, həm də qlobal sülhün təminində iştirak edir. Avropanın aparıcı siyasi dairələri Bakı ilə əlaqələrin inkişafında maraqlı olduqlarını hər zaman dilə gətirirlər. Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın paytaxtı İrəvan şəhərində keçirilmiş "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısında videobağlantı formatında çıxış etməsi də bu faktı sübut edir. Dövlət başçısı çıxışında bildirib ki, Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın Azərbaycana iki aydan az vaxt əvvəl etdiyi səfəri zamanı Azərbaycan Prezidentinin Zirvə görüşündə iştirakı müzakirə edilib və ölkə başçımızın tədbirə videobağlantı formatında qoşulması razılaşdırılıb.

**Sülhün əyani nəticələri...**

Ermənistan ilə son 2 ildə baş tutan ikitərəfli görüşlər, xüsusilə Vaşinqtonda ABŞ-ın ev sahibliyi ilə keçirilən danışıqlar prosesi və əldə olunan razılaşmalar Azərbaycanın regionun təhlükəsizliyi və sabitliyi naminə iqtisadi əlaqələrin genişlənməsinə, yeni münasibətlər sisteminin formalaşmasına dəstək verdiyini açıq şəkildə ortaya qoydu. Yeni mərhələdə, sülhün daha da irəliyə aparılması, nəticə etibarı ilə imzalanması bölgədə mühüm yeniliklərə yol açacaq. Bunun konturları indidən üzə çıxır - belə ki, Bakı Ermənistanın "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısına ev sahibliyi etməsini dəstəkləyib. Dövlət başçımız çıxışında bildirib ki, bir il öncə Tiranaya səfəri zamanı Prezident Koşta və Prezident Fon der Lyayen Zirvə görüşünün 2026-cı ilin mayında Ermənistanda təşkil olunması ideyasına rəyini soruşublar: "Mən dəstəklədim. Öz növbəmdə mən tarazlı yanaşmanın saxlanılması üçün növbəti Zirvə görüşlərindən birinin Azərbaycanda keçirilməsi təklifi ilə çıxış etdim. Təklif qəbul olundu. Beləliklə, mən "Avropa Siyasi Birliyi"nin üzvlərini 2028-ci ilin mayında Azərbaycanda keçiriləcək Zirvə görüşünə dəvət edirəm. Yeri gəlmişkən, Ermənistan, həmçinin namizədliyimizi dəstəklədi. Bu, Azərbaycan ilə Ermənistan arasında sülhün real olmasının aydın göstəricisidir. Biz cəmi doqquz aydır ki, sülh şəraitindəyik və sülhdə yaşamağı öyrənirik".

Qeyd edildiyi kimi, sülh prosesinin memarı Bakıdır. Ötən ilin avqustunda iki ölkə arasında imzalanan, Prezident Trampın da şahid kimi imza atdığı Birgə Bəyannamə, Ermənistanın və Azərbaycanın xarici işlər nazirlərinin sülh sazişinin mətnini paraflaması hər iki tərəf üçün sülhə doğru olduqca vacib addımlardan biri kimi tarixə düşdü. Nəticə etibarı ilə, artıq 9 aydır ki, Cənubi Qafqazda sülh hökm sürür. Sülhün verdiyi dividendlər isə saysızdır. Xüsusən, Ermənistan sülhün onlara nələr vəd etdiyini əyani şəkildə görür. Dövlət başçısı çıxışında bildirib ki, sülhün əldə olunması faktı əsasında Azərbaycan 1990-cı illərin əvvəlindən Ermənistana tətbiq edilən bütün tranzit məhdudiyyətlərini birtərəfli qaydada aradan qaldırdı: "İndiyə qədər Ermənistana Azərbaycan ərazisi vasitəsilə 28 min ton yük çatdırılıb. Azərbaycan hətta əlavə addımlar atdı. Biz ilk dəfə olaraq öz neft məhsullarımızı - benzin və dizeli Ermənistana təchiz etməyə başladıq. Beləliklə, ticarət münasibətləri başladı. Bu vaxta qədər 12 min ton neft məhsullarımız Ermənistana ixrac edilib".

Sülhlə bağlı ən mühüm nailiyyətlərdən biri də qlobal ticari sistemə yeni ruh qazandırılmasıdır. Azərbaycanın təşəbbüsü ilə meydana çıxan Zəngəzur dəhlizi (TRIPP) layihəsi Şərq ilə Qərb arasında nəqliyyat daşımacılığının daha da inkişafı üçün stimuldur. Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirəcək bu yol qarşıdakı dövrdə qlobal ticarətin ən mühüm arteriyalarından biri qismində çıxış etmək perspektivinə malikdir. Prezident İlham Əliyev bildirib ki, sülh sahəsində digər nailiyyət bağlantılardır. "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" Azərbaycanın öz ekslavı Naxçıvanla birləşdirəcək və bununla yanaşı, o, Orta Dəhlizin bir hissəsinə çevriləcək: "Həm Ermənistan, həm Azərbaycan sülhün əyani nəticələrini artıq görürlər. Bu fürsətdən istifadə edərək, mən Ermənistan-Azərbaycan sülh prosesində tutduğu mövqeyə görə Avropa Komissiyasına təşəkkürümü bildirmək istəyirəm".

**İkili standartlar qəbuledilməzdir...**

Cənubi Qafqazda davamlı və əbədi sülhün bərqərar olması dünya xəritəsinə yeni ştrixlər qazandıracaq. Ticari tərəfdaşlıqlarla yanaşı, bu sülh əsasında formalaşan qlobal əməkdaşlıq platformaları həm də ölkələr, hətta qütblər arasında siyasi dialoqun inkişafına təkan vəd edir. Təəssüfləndiciri haldır ki, bəzi "beynəlxalq" statuslu təşkilatlar sülhə qarşı, Azərbaycana qarşı destruktiv mövqedən çıxış edirlər. Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində Azərbaycanın öz ərazi bütövlüyünü, suverenliyini təmin etməsi, BMT TŞ-nın məlum 4 qətnaməsinin icrası, regionda sülhün oturuşması erməni lobbisi ilə yaxın təmasda olan bu kimi təşkilatları narahat etməkdədir. Maraqlıdır ki, erməni işğalı dövründə Azərbaycana qarşı olan təcavüzkar siyasəti susqunluqla qarşılayan həmin dairələr bu gün, sülhün bir addımlığındaykən, ədalət bərpa olduğu zamanda "dilə gəlib", qeyri-hüquqi bəyanatlar verir, "qətnamələr" qəbul edirlər. Bunların sırasında Avropa Parlamenti ilə Avropa Şurası Parlament Assambleyası xüsusilə fərqlənir. Məsələn, 2001-ci ildən AŞ-da təmsil olunan Azərbaycana qarşı münasibət Vətən müharibəsi, xüsusilə də antiterror tədbirlərinin ardından köklü şəkildə dəyişdi - ikili standartlar ortaya qoyulmağa başlandı, hətta separatizmin dəstəklənməsi halları belə müşahidə olundu. Prezident İlham Əliyev çıxışında qeyd edib ki, Azərbaycanın nümayəndə heyətinə 2024-cü ilin yanvarına qədər Avropa Şurasında heç zaman məhdudiyyətlər tətbiq edilməmişdi: "2023-cü ilin sentyabrında Azərbaycan Qarabağda separatçılığa son qoydu. Biz BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 30 il kağız üzərində qalan 4 qətnaməsini özümüz icra etdik. Dörd ay sonra AŞPA nümayəndə heyətimizə sanksiyalar tətbiq etdi. Əfsuslar olsun ki, ikili standartlar bu gün sanki AŞPA-nın iş təlimatıdır. Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü qədər eyni dəyərə malikdir. Bu məsələdə ikili standartlar qəbuledilməzdir".

Hazırda isə eyni mövqeni Avropa Parlamenti nümayiş etdirir. Bu qurum açıq şəkildə sülhə qarşı yanaşma sərgiləyir - statistika da bunu təsdiqləyir. Belə ki, İkinci Qarabağ müharibəsi bitdikdən cəmi 6 ay sonra - 2021-ci ilin mayından 2026-cı ilin aprelin 30-na qədər Avropa Parlamenti Azərbaycanla bağlı təhqir və yalanlarla dolu 14 qətnamə qəbul edib. Dövlət başçısı beş il ərzində 14 qətnamənin qəbulunu aludəçilik adlandırıb: "Ən sonuncusu cəmi dörd gün əvvəl - bilərəkdən Zirvə görüşü ərəfəsində qəbul edildi. Avropa Parlamenti ksenofobiya, islamofobiya, antisemitizm, miqrasiya, rəqabətçilik, evsiz insanların məsələsi kimi fundamental problemləri həll etmək əvəzinə, böhtan və yalan yayaraq Azərbaycanı hədəfə alır. Səbəb isə odur ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib, separatçılığa son qoyub və müharibə cinayətkarlarını ədalət mühakiməsinə cəlb edib. Cavab olaraq Azərbaycan parlamenti mayın 1-də Avropa Parlamenti ilə bütün sahələrdə əməkdaşlığı dayandırmaq, Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin işində iştirakına son qoymaq və Avronest Parlament Assambleyasında üzvlüyün dayandırılmasına aid prosedurlara başlamaqla bağlı rəsmi qərar qəbul edib".

**Sülhə sadiqlik...**

Bu kimi qeyri-hüquqi mövqelərə baxmayaraq, Ermənistan ilə Azərbaycan sülh prosesində ardıcıldırlar. Bakının yanaşması açıq və şəffafdır - biz bölgədə əbədi sülhün olmasının tərəfdarıyıq. Dövlət başçısı nitqinin sonunda bu məsələyə xüsusi diqqət çəkib. Bildirib ki, "prosesə mane olmaq istəyən tərəflərin bütün səylərinə baxmayaraq, Azərbaycan sülh gündəliyinə sadiqdir və ermənistanlı həmkarımın şərhləri bunu aydın şəkildə göstərir".

*Pərviz SADAYOĞLU*

# Heydər Əliyev sosial inkişaf strategiyasının müəllifidir









Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev sosial inkişaf strategiyasının müəllifidir" mövzusunda tədbir keçirilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Yeni Azərbaycan Partiyasının (YAP) birgə təşkil etdiyi tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev, YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, YAP Yasamal Rayon Təşkilatının sədri Bəxtiyar Nəbiyev, YAP Veteranlar Şurasının üzvü, akademik Misir Mərdanov və b. iştirak ediblər. Nazirliyin tabeliyində DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində keçirilən tədbirin iştirakçıları görkəmli dövlət xadimi Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolardan, Mərkəzin benefisiarlarının Ulu Öndərə həsr edilmiş əl işlərindən ibarət sərgi ilə tanış olublar.

Anar Əliyev çıxış edərək Ümummilli Lider Heydər Əliyevin müasir müstəqil Azərbaycan dövlətinin qurulması və inkişafı naminə misilsiz tarixi xidmətlərini diqqətə çatdırıb. Bildirib ki, Ulu Öndər vətəndaş rifahının təminatını dövlət siyasətinin başlıca istiqamətlərindən biri kimi müəyyən edib. 1993-2003-cü illərdə sosial inkişafın təmin olunması üçün Ulu Öndər Heydər Əliyev tərəfindən 60-dan artıq sənəd imzalanıb. Həmin dövrdə pensiya və müavinətlərin orta aylıq məbləği 8 dəfə, orta aylıq əməkhaqqı 6 dəfədən çox artıb. Ümummilli Lider Heydər Əliyevin müdrik və uzaqgörən siyasətinin möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən yüksək səviyyədə davam və inkişaf etdirilməsi nəticəsində ölkəmiz böyük nailiyyətlər əldə edib, möhtəşəm tarixi Zəfər qazanıb. Sosial sahədə də mühüm addımlar atılır və dövlətimizin başçısının tapşırıqları ilə son 7 ildə 5 böyük sosial islahat paketi icra olunaraq sosial ödənişlərdə ciddi artımlar edilib.

Ulu Öndərin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının fəaliyyəti də xalqa, dövlətə xidmət məramına söykənir və Prezident cənab İlham Əliyevin Sədri olduğu Partiya ölkəmizin dinamik və hərtərəfli inkişafı proseslərində böyük xidmətlər göstərir.

Tahir Budaqov bildirib ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev ilk növbədə ölkədə dərin sosial-iqtisadi böhranın aradan qaldırılmasına nail olub, iqtisadi sabitliyi təmin etməklə yanaşı, sosial sahədə əsaslı islahatların təməlini qoyub. Ulu Öndərin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ildə qəbul olunmuş müstəqil Azərbaycanın ilk Konstitusiyasında Azərbaycan vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit edilib. Ümummilli Lider Heydər Əliyev rəhbərliyi dövründə ölkəmizdə sosial siyasətin institusional əsasları yaradılıb, cəmiyyətin bütün təbəqələri dövlət qayğısı ilə əhatə olunub. Dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının rifahı və mənafeyi dayanır" fikri sosialyönümlü siyasətin əsasını təşkil edir.

YAP-ın proqramında da sosialyönümlü siyasətin əsas istiqamətlərindən biri olduğunu qeyd edən Tahir Budaqov Partiyanın Ulu Öndərin ideyalarına sadiq qalaraq sosial ədalət, vətəndaş rifahı, güclü dövlət prinsiplərinin həyata keçirilməsində fəal iştirak etdiyini bildirib.

Musa Quliyev müstəqil Azərbaycan dövlətinin sosial inkişaf strategiyasının müəllifi olan Ümummilli Lider Heydər Əliyevin əhalinin sosial müdafiəsinə daim xüsusi diqqət və qayğı göstərdiyini vurğulayıb. O, Ulu Öndərin tapşırıqları əsasında ölkənin sosial qanunvericilik bazasının yaradılması üçün aparılan işlərdən bəhs edib. Misir Mərdanov Ümummilli Lider Heydər Əliyevin sosial sahənin, milli təhsil sisteminin inkişafı naminə göstərmiş olduğu xidmətləri diqqətə çatdırıb.

Daha sonra nazirliyin 64 əməkdaşına YAP-ın üzvlük vəsiqələri təqdim edilib. Nazirlik sistemi üzrə YAP üzvləri olan əməkdaşların sayının 5500-ə yaxın olduğu qeyd olunub. Partiyaya yeni üzv qəbul edilən əməkdaşlar göstərilən yüksək inam və etimada görə minnətdarlıqlarını ifadə ediblər.

DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin benefisiarlarının ifalarından ibarət inklüziv konsert proqramı təqdim olunub.

# “Müasir Şəhərsalma Vizyonu: Ənənə və İnnovasiyanın Harmoniyası”

## Rəqəmsal İdeya Müsabiqəsinin bağlanış mərasimi keçirilib











Mayın 5-də “Şəhərsalma və Memarlıq İli” çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı, YAP Gənclər Birliyi və Bakı Slavyan Universitetinin (BSU) birgə təşkilatçılığı ilə “Müasir Şəhərsalma Vizyonu: Ənənə və İnnovasiyanın Harmoniyası” Rəqəmsal İdeya Müsabiqəsinin bağlanış mərasimi keçirilib.

Tədbirdən öncə Bakı Slavyan Universitetinin inzibati binasında Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb.

Sonra BSU-nun Heydər Əliyev adına muzey-lektoriyasında YAP sıralarına yeni qəbul olunmuş tələbə-gənclərlə görüş keçirilib və onlara partiyaya üzvlük vəsiqələri təqdim olunub.

Tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Yeni Azərbaycan Partiyasının Media Qrupunun hazırladığı “Şəhərsalma və Memarlıq İli”nə həsr olunmuş videoçarx nümayiş olunub.

YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva “Müasir Şəhərsalma Vizyonu: Ənənə və İnnovasiyanın Harmoniyası” Rəqəmsal İdeya Müsabiqəsinin hesabatını təqdim edib. O bildirib ki, artıq ənənə halını almış Rəqəmsal İdeya Müsabiqəsinə hər il gənclərin diqqəti daha da artmaqdadır: “Belə ki, bu il sayca 4-cü dəfə keçirilən müsabiqəyə respublikanın 65 inzibati ərazi vahidindən ümumilikdə 1418 müraciət daxil olub. Qeydiyyatdan keçən gənclər arasından ən uğurlu 120 iştirakçı seçilib. İştirakçıların seçimi zamanı gender bərabərliyi də əsas prinsiplərdən biri olaraq götürülüb”.

Z.Musayevanın sözlərinə görə, 30-dan çox təhsil müəssisəsini və 20-dən çox şəhər və rayonu təmsil edən gənclər bu gün komanda yarışlarında ən yaxşı olmaq üçün mübarizə aparıblar: “Rəqəmsal İdeya Müsabiqəsinin başlıca məqsədləri Prezident İlham Əliyevin gənclərin qarşısına qoyduğu strateji hədəflərə uyğun olaraq intellektual, innovativ düşüncəyə malik gənc liderlərin formalaşdırılmasına töhfə vermək, gəncləri şəhərsalma və memarlıq sahəsində tətbiq olunan müasir yanaşma və alətlərlə tanış etmək, o cümlədən cəmiyyətə faydalı texnoloji həllərin tətbiq olunmasını təşviq etməkdir. Bu məqsədlə 2 gün davam edən təlim və layihə proqramı çərçivəsində süni intellektə giriş, pitç texnikaları və təqdimat bacarıqları, ideya konseptinin işlənməsi və məhsul dizaynı kimi mövzularda təlimlər, o cümlədən gənclər siyasətində texnoloji inkişafın dəstəklənməsi, data əsaslı şəhər planlaması, ağıllı dizayn yanaşmaları kimi mövzularda ekspert görüşləri və panel müzakirələr təşkil olunub. “Müasir Şəhərsalma Vizyonu: Ənənə və İnnovasiyanın Harmoniyası” adlandırdığımız Rəqəmsal İdeya Müsabiqəsində bu gün komandalarımız 9 saat ərzində mentorlarla birgə “Tikdim ki, izim qala!” adlı komanda katalizatoru, “Köhnə kəndə yeni adət” adlı süni intellekt vörkşopu, “Bir qalanın sirri” adlı” intellekt rinqi, o cümlədən panel müzakirəsi, ideya müsabiqəsi və layihələrin təqdimatından ibarət 6 mərhələli yarışda iştirak ediblər”.

Sonra Rəqəmsal İdeya Müsabiqəsinin hesabat videoçarxı təqdim edilib.

Tədbirdə çıxış edən Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev bildirib ki, Prezident İlham Əliyevin Sərəncamı ilə 2026-cı ilin Azərbaycanda “Şəhərsalma və Memarlıq İli” elan edilməsi ölkəmizdə şəhərsalma və memarlıq ənənələrinin çoxəsrlik zəngin keçmişini nəzərə almaqla mühüm tarixi əhəmiyyətə malikdir. Onun sözlərinə görə, Bakı şəhəri müasir şəhərsalma mədəniyyətinin bariz nümunəsini təşkil edir: “Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi sistemli siyasət nəticəsində şəhərimizin qədim tarixi ənənələri elm, texnologiya və innovasiyaların cəmləşdiyi mükəmməl şəhər modelini səciyyələndirir”.

Rektor qeyd edib ki, Bakının ev sahibliyi edəcəyi növbəti mötəbər tədbirlərdən biri 13-cü Ümumdünya Şəhərsalma Forumu (WUF13) olacaq: “2024-cü ildə şəhərimizdə keçirilmiş COP29 və bir çox digər tədbirlərdə olduğu kimi, “WUF13”-də də yüz milyonlarla insanın gündəlik həyatına təsir edəcək qərarların qəbul ediləcəyi şübhəsizdir. Danılmaz reallıqdır ki, Bakı siyasi və beynəlxalq əhəmiyyəti ilə bərabər tarixilik, müasirlik və innovasiyaların mərkəzi olaraq dünyanın qlobal siyasət, mədəniyyət və inkişaf paytaxtlarından birinə çevrilib”.

A.Nağıyev deyib ki, keçirilən müsabiqənin əsas məqsədi ənənəvi Azərbaycan memarlıq dəyərlərinin müasir şəhərsalma texnologiyaları ilə harmonik şəkildə birləşdirilməsidir: “Burada rəqəmsal həllərin, 3D modelləşdirmənin və innovativ planlaşdırma metodlarının tətbiqi xüsusi əhəmiyyət daşıyır. Bu yanaşma şəhər mühitinin daha funksional, ekoloji və estetik baxımdan inkişafına şərait yaradır”.

Onun sözlərinə görə, Bakı Slavyan Universitetinin “Şəhərsalma və Memarlıq İli” və digər müvafiq fəaliyyət planları çərçivəsində müxtəlif tədbirlər keçirilir, fənlərarası tədqiqatlar təşviq edilir, dayanıqlı və inklüziv universitet modelinin qurulması istiqamətində addımlar atılır. “Artıq dörd ildir ki, BSU-nun uğurla həyata keçirdiyi “İnklüziv təhsildən inklüziv cəmiyyətə” layihəsinin daha inklüziv şəhər icması üçün müəllim hazırlığı, bacarıqların və pedaqoji həllərin yaradılması istiqamətində mühüm rol oynaya biləcəyinə inanırıq” , - deyə rektor vurğulayıb.

Çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, müasir dövrdə şəhərsalma yalnız infrastruktur quruculuğu deyil, həm də milli kimliyin qorunması, sosial rifahın yüksəldilməsi və davamlı inkişaf prinsiplərinin tətbiqi baxımından mühüm əhəmiyyət daşıyır: “Qlobal urbanizasiya prosesi, sürətli texnoloji tərəqqi və günümüzün ekoloji çağırışları ilə əlaqədar meydana çıxan yeni yanaşmalar fonunda Azərbaycan ənənə ilə müasirliyin vəhdətini uğurla təmin edən nadir ölkələrdən biri kimi çıxış edir. Ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlər, o cümlədən genişmiqyaslı quruculuq işləri davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi kimi xüsusi önəm daşıyır”.

Tahir Budaqov vurğulayıb ki, Azərbaycanın müasir siması xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı və fəaliyyəti ilə sıx bağlıdır: “Ulu Öndər istər SSRİ dövründə, istərsə də müstəqillik illərində ölkəmizə rəhbərlik etdiyi zaman şəhərsalma siyasəti strateji prioritetlərdən biri kimi müəyyənləşdirilərək paytaxt Bakıda və respublikanın bütün bölgələrində milli-mənəvi dəyərlərə əsaslanan, tarixi yaddaşı qoruyan və gələcəyə yönələn məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Tarixi abidələrin qorunması, milli ənənələrin yaşadılması, çağdaş memarlıq üslublarının tətbiqi nəticəsində şəhərlərin simasında harmoniyanın yaradılması Azərbaycanı regionda və daha geniş coğrafiyada fərqləndirən mühüm amillərdən biri olmuşdur. Heydər Əliyev siyasətini bütün istiqamətlərdə müvəffəqiyyətlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə görülən işlər, eləcə də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr isə paytaxt Bakının modernləşməsinə və regionların sosial-iqtisadi inkişafına təkan verməklə şəhərsalma təcrübəsi baxımından mütərəqqi nümunə yaratmış və tarixi irsimizin gələcək nəsillərə ötürülməsinə etibarlı zəmin formalaşdırmışdır”.

“Bu gün Bakı dünyanın ən gözəl və müasir şəhərlərindən biri kimi tanınır. Bir tərəfdə əsrlərin yaddaşını yaşadan tarixi məkanlar, digər tərəfdə isə müasir memarlıq inciləri - bu harmonik vəhdət Bakını unikal şəhərə çevirmişdir. Paytaxtımızın beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etməsi, turistlər üçün cəlbedici məkana çevrilməsi də aparılan məqsədyönlü siyasətin nəticəsidir. Bunlarla yanaşı, hazırda işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Proqramının mühüm tərkib hissəsi kimi innovativ yanaşmalar əsasında “ağıllı şəhər” konsepsiyası uğurla həyata keçirilməkdədir. BMT-nin Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasının 2026-cı ildə Bakı şəhərində keçirilməsinə dair qərarın qəbulu Azərbaycanın dayanıqlı inkişaf siyasətinə, o cümlədən beynəlxalq müstəvidə şəhərsalma prosesinə töhfələrinə verilən yüksək qiymətin bariz göstəricisidir” , - deyə YAP Sədrinin müavini əlavə edib.

Tahir Budaqov qeyd edib ki, Yeni Azərbaycan Partiyası hər zaman ölkəmizin inkişafına yönəlmiş təşəbbüslərlə çıxış etmişdir: “Partiya Ümummilli Liderin ideyalarını rəhbər tutaraq dövlətçiliyin möhkəmləndirilməsində və siyasi sabitliyin qorunmasında mühüm rol oynayır. YAP cəmiyyətin bütün təbəqələrini, o cümlədən gəncləri öz sıralarında birləşdirərək ölkəmizin gələcəyi naminə

davamı 5-ci səhifədə

# "Müasir Şəhərsalma Vizyonu: Ənənə və İnnovasiyanın Harmoniyası"








əvvəli 4-cü səhifədə



mühüm layihələr həyata keçirir. Bu gün inam və qürurla qeyd edirik ki, milli-mənəvi dəyərlərə sadiq və möhkəm əqidəli Azərbaycan gəncliyi müxtəlif sahələrdə yüksək fəallıq nümayiş etdirir və respublikamızı beynəlxalq arenada layiqincə təmsil edir".

YAP Sədrinin müavini bildirib ki, artıq ənənə halını almış və innovativ ideyaların təşviqi üçün mühüm platforma olan Rəqəmsal İdeya Müsabiqəsi gənclərimizin istər intellektual potensialının üzə çıxarılması, istər ölkənin ictimai-siyasi həyatında fəal iştirakı, istərsə də kommunikasiya bacarıqlarının artırılması baxımından böyük əhəmiyyət kəsb edir: "Burada təqdim olunan layihələr təsdiqləyir ki, Azərbaycan gəncliyi yüksək intellektə, geniş dünyagörüşünə və dövrün çağırışlara adekvat müasir düşüncə tərzinə malikdir. Rəqəmsallaşma bu gün dünyanın inkişaf istiqamətlərini müəyyən edən əsas amillərdən biridir. Şəhərsalma və memarlıq sahəsində rəqəmsal texnologiyaların tətbiqi isə resurslardan daha səmərəli istifadə olunmasına və vətəndaş məmnunluğunun artırılmasına xidmət edir. Bu baxımdan, müsabiqə çərçivəsində irəli sürülən ideyalar gələcəkdə real layihələrə çevrilərək ölkəmizin inkişafına güclü təkan verə bilər. Bu gün bağlanış mərhələsinin keçirildiyi bu intellektual yarışmada iştirak edən bütün gəncləri ürəkdən təbrik edirəm. Əslində, müsabiqəyə qatılan hər bir komanda özünü qalib hesab edə bilər. Çünki belə kreativ platformalarda təmsil olunmaq Heydər Əliyev ideyalarına, Prezident İlham Əliyevin siyasətinə və Yeni Azərbaycan Partiyasının prinsiplərinə sonsuz inamın birmənalı ifadəsidir. İnanıram ki, hər biriniz öz bilik və bacarığınızla Azərbaycanın gələcək inkişafında önəmli rol oynayacaqsınız".

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev çıxışında bildirib ki, bu müsabiqə gənclərin innovativ potensialına göstərilən yüksək diqqətin və dövlətin gələcəyə baxışının real ifadəsidir. Onun sözlərinə görə, gənclər siyasəti dövlətlərin inkişaf strategiyalarının mərkəzində dayanır: "Qlobal səviyyədə gənclər artıq şəhərsalma gündəliyinin formalaşmasında əsas maraqlı tərəflərdən biri kimi çıxış edir. Onların ideyaları, yanaşmaları və texnoloji bacarıqları şəhərlərin gələcək inkişaf trayektoriyasını müəyyən edir. Bu yanaşma təsadüfi deyil. Hazırda dünya əhalisinin təqribən 55 faizi şəhərlərdə yaşayır. Urbanizasiya sürətlə davam edən qlobal prosesdir və 2050-ci ilə qədər dünya əhalisinin təxminən 70 faizi şəhərlərdə yaşayacaq. Sürətli urbanizasiya şəhərlərlə bağlı əhalinin artan tələbatının qarşılanması, iş yerlərinin yaradılması, müasir şəhər xidmətlərinin təmin edilməsi və ekoloji tarazlığın qorunması kimi mürəkkəb çağırışları ön plana çıxarır".

Dövlət Komitəsinin sədri qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə gənclərin təhsili, innovativ düşüncəsi, liderlik keyfiyyətləri və dövlət idarəçiliyində iştirakı sistemli şəkildə dəstəklənir: "Bu siyasətin nəticəsi olaraq bu gün Azərbaycanda yeni bir nəsil formalaşıb. Bu nəsil texnoloji cəhətdən daha bilikli və hazırlıqlı, çoxsəviyyəli məlumat sistemləri, iri həcmli data ilə işləyən və qlobal prosesləri yaxından izləyərək onların fəal iştirakçısı olan bir nəsildir. Hazırda yekun vurulan müsabiqə bu transformasiyanın çox yaxşı əyani nümunəsidir".

A.Quliyev diqqətə çatdırıb ki, şəhərsalma və memarlıq sahəsi indi bütün dünyada keyfiyyətcə yeni mərhələyə keçid alır: "Bu gün şəhər və region miqyaslı layihələr böyük data əsasında hazırlanır, qərarlar rəqəmsal modellərlə yoxlanılır, şəhər sistemləri əvvəlcədən simulyasiya edilir. Azərbaycan bu transformasiyanın aktiv iştirakçısıdır. Son illərdə ölkənin 79 şəhərindən 68-nin yeni Baş planlarının hazırlanması və təsdiqi təmin olunub. Bu iş hazırda da intensiv davam edir".

Dövlət Komitəsinin sədri vurğulayıb ki, işğaldan azad edilmiş ərazilərin ümumi planı, həmin ərazilərdə yerləşən 12 şəhərdən 8-nin baş planı, eləcə də 101 qəsəbə və kənd yaşayış məntəqəsinin ərazi planlaşdırılması sənədləri hazırlanaraq təsdiq olunub: "Bu sənədlər vətəndaşlarımızın geri dönüşü üçün müasir və təhlükəsiz yaşayış mühitinin formalaşdırılmasına, həmçinin həmin ərazilərdə tikinti fəaliyyətinin səmərəli şəkildə həyata keçirilməsinə imkan yaradıb. Azərbaycan Prezidenti İlham Əliyevin xüsusi diqqəti və nəzarəti altında Qarabağ və Şərqi Zəngəzurda "Ağıllı kənd" və "Ağıllı şəhər" konsepsiyalarına əsaslanan sosial ədalətli və dayanıqlı məskunlaşma modeli qurulmaqda, eyni zamanda zəruri yolnəqliyyat, elektrik, qaz, su, təhsil, səhiyyə və yaşayış infrastrukturu ardıcıl şəkildə bərpa edilməkdədir. Nəticədə artıq 41 yaşayış məntəqəsinə köç təmin olunub, həmin ərazilərdə təqribən 33 min nəfərə yaxın məcburi köçkün olmaqla ümumilikdə 81 mindən çox insanın yaşaması, işləməsi və təhsil alması təmin edilib".

A.Quliyev əlavə edib ki, Prezident İlham Əliyev tərəfindən 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi bir neçə mühüm mesaj verir: "Şəhərsalma ölkənin inkişaf strategiyasının mərkəzində dayanır, bu sahədə keyfiyyətcə yeni mərhələyə keçid baş verir, gələcəyin şəhərlərinin formalaşdırılması prioritet istiqamət kimi müəyyən edilir.Bakının bu ay ev sahibliyi edəcəyi BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası xüsusi əhəmiyyət kəsb edir. Ümumdünya Şəhərsalma Forumu BMT-nin Məskunlaşma Proqramı tərəfindən təşkil olunan və şəhərsalma sahəsində ən böyük, ən inklüziv və ən nüfuzlu qlobal platforma hesab olunur. Bu günə qədər artıq 175 ölkədən təqribən 27 min iştirakçı qeydiyyatdan keçib və bu proses davam edir. Forumun əsas xüsusiyyəti onun açıq və çoxsəviyyəli strukturudur. Forum yalnız rəsmi müzakirələrdən ibarət deyil. Tədbir çərçivəsində gənclər üçün xüsusi platformalar nəzərdə tutulur: Gənclər Assambleyası, gənclərin liderlik və innovasiya təşəbbüslərinə həsr olunmuş sessiyalar, startap və texnoloji layihələrin təqdim olunduğu platformalar, interaktiv müzakirələr və şəbəkələşmə imkanları. Əminəm ki, Azərbaycan gəncləri bu platformada fəal iştirak edəcək və öz innovativ yanaşmaları ilə qlobal şəhərsalma gündəliyinə layiqli töhfə verəcəklər".

Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev Rəqəmsal İdeya Müsabiqəsinin gənclərin intellektual inkişafı baxımından mühüm əhəmiyyətə malik olduğunu deyib: "Bugünkü Azərbaycan gəncliyi daha bacarıqlı və rəqabətədavamlıdır. Təbii ki, hər bir nəsil müqayisədə bir addım irəli ata bilirsə, məhz bu halda biz inkişafdan danışa bilirik".

Nazir bildirib ki, növbəti nəsillər dövlət müstəqilliyinin qorunub saxlanılmasında, Azərbaycanın daha da inkişaf etməsində öz üzərinə düşən öhdəlikləri layiqincə yerinə yetirə biləcəklər: "Ölkəmizdə COP29 keçirilərkən həmin tədbirdə iştirak edən dövlət və hökumət başçıları bu konfransın təşkilatçılığına cəlb edilmiş Azərbaycan gənclərinin bacarıqlarını xüsusi olaraq vurğulayırdılar".

Emin Əmrullayev söyləyib ki, bir neçə gündən sonra ölkəmizdə Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyası keçiriləcək: "Bu mötəbər tədbir Azərbaycanın bir daha dünya miqyasında tanınması baxımından önəmli təşəbbüsdür. İnanıram ki, tədbirlə əlaqədar qarşıda duran müxtəlif vəzifələrlə yanaşı, bu, Azərbaycan gəncliyi üçün öyrənmək, özünü qlobal arenada rəqabətədavamlı olduğunu nümayiş etdirmək üçün növbəti bir imkandır. Məhz müxtəlif ali təhsil müəssisələrində təhsil alan və yaxud da məzun olmuş tələbələrin və gənc mütəxəssislərin bu Forumdan əsaslı şəkildə bəhrələnəcəyinə əminlik ifadə edirəm. İnanıram ki, bu faktor onlar üçün ömür boyu davam edəcək bir təcrübəyə çevriləcəkdir".

Elm və təhsil naziri qeyd edib ki, "Şəhərsalma və Memarlıq İli" çərçivəsində ali təhsil müəssisələrinin uğurlu nəticələrini uzun müddət ölkəmizin inkişafına təsir edən mühüm amil kimi xatırlayacağıq: "Bu, təbii ki, ilk növbədə kadr hazırlığı məsələsidir. Bu yaxınlarda Azərbaycan Memarlıq və İnşaat Universitetinin yubileyi qeyd olunub. Xüsusilə bu ali təhsil ocağının məzunlarının şəhərsalma və memarlıq sahəsində rolunu vurğulamaq lazımdır. Amma eyni zamanda şəhərlər haqqında danışarkən aydın olur ki, bu, yalnız memarlıq məsələsi deyil. Burada çox geniş şəhərdə birgə yaşayış və urbanizasiyanın müasir tələblərinə cavab verən insanların istər sosial-mədəni davranışları, istər onların gündəlik həyatının təşkili, istərsə də böyük şəhərlərin idarəetməsində logistik məsələlərdən söhbət gedir. Yəni bu tipli fərqli məsələlərin həlli müxtəlif səpkili kadrları tələb edir. İnanıram ki, Azərbaycan məktəbləri və ali təhsil müəssisələri gələcək nəsillərin hazırlanmasında qarşıya qoyulmuş vəzifələrə nail ola biləcəklər".

Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov qeyd edib ki, Rəqəmsal İdeya Müsabiqəsi gənclərin innovativ düşüncəsini, texnoloji bacarıqlarını və komanda ruhunu inkişaf etdirmək baxımından olduqca əhəmiyyətlidir.

Nazir vurğulayıb ki, Prezident İlham Əliyev gənclərin intellektual və innovativ potensialının inkişafını prioritet istiqamətlərdən biri kimi müəyyən etmişdir və bu sahədə ardıcıl dəstək siyasəti həyata keçirir: "Bu yanaşma öz əksini Azərbaycan gənclərinin inkişafı strategiyasında və müvafiq dövlət proqramlarında aydın şəkildə tapır. Bu strategiyalar çərçivəsində gənclərin sahibkarlıq, məşğulluq və şəxsi inkişaf sahələrində hərtərəfli dəstəklənməsi üçün mühüm imkanlar yaradılmışdır. Xüsusilə, bu proqramlar regionlarda yaşayan gənclərin bərabər imkanlardan faydalanmasını təmin etməyə yönəlib. Gənclər və İdman Nazirliyi olaraq biz il ərzində gənclərin ideyalarının dəstəklənməsi istiqamətində müxtəlif layihələr həyata keçiririk. Bu istiqamətdə dövlət və özəl sektor tərəfdaşları ilə birgə müxtəlif proqramlar reallaşdırırıq və gələcəkdə bu dəstəyi daha da genişləndirməyi planlaşdırırıq. Bu sırada hakatonlar, ideya müsabiqələri və startap yönümlü forumlar xüsusi yer tutur. Eyni zamanda, gənclərin karyera inkişafı üçün sərgilər, əmək yarmarkaları, mentorluq və təlim proqramları təşkil olunur. Bununla yanaşı, süni intellekt və rəqəmsal texnologiyalar sahəsində gənclərin bacarıqlarının inkişafı istiqamətində də xüsusi təşəbbüslər həyata keçirir, onları gələcəyin əmək bazarına hazırlamağı prioritet hesab edirik. Xüsusilə vurğulamaq istərdim ki, hakaton və innovativ ideyaların inkişafına daim dəstək göstəririk. Bu cür platformalar gənclərin kreativ düşüncəsini reallaşdırmaq, onları real həllər üzərində işləməyə təşviq etmək baxımından böyük əhəmiyyət daşıyır. Gənclərin ideyaları ölkəmizin gələcəyidir".

Sonra "Müasir Şəhərsalma Vizyonu: Ənənə və İnnovasiyanın Harmoniyası" Rəqəmsal İdeya Müsabiqəsinin qalibləri mükafatlandırılıb. I yerin qalibi "Zəngəzur", II yerin qalibi "İçərişəhər", III yerin qalibi "İsmailiyyə" komandaları, "Bir qalanın sirri" intellektual oyunun qalibi isə "İsa Bulağı" olub.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Daha sonra Bakı Slavyan Universitetinin tələbələrinin ifasında konsert proqramı təqdim olunub.

# Dövlətin və cəmiyyətin vahid amalı - davamlı sülh!

Bu günlərdə Qərbi Azərbaycan İcmasının (QAİ) təşəbbüsü və təşkilatçılığı ilə "Davamlı sülh və qaçqınların qayıdış hüququ: beynəlxalq hüququn rolu" mövzusunda beynəlxalq onlayn-hibrid konfrans keçirilib. Tədbirdə müxtəlif ölkələrdən siyasətçilər, hüquqşünaslar, akademiklər və beynəlxalq ekspertlər iştirak ediblər.

Bu barədə "Yeni Azərbaycan"a Qərbi Azərbaycan İcmasından (QAİ) məlumat verilib. Konfransın açılış mərasimində moderator qismində çıxış edən Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcması Qadınlar Şurasının sədri Məlahət İbrahimqızı davamlı sülhün təmin olunmasında beynəlxalq hüququn rolunu vurğulayıb. Ardınca hüquqşünas, Bakı Dövlət Universitetinin professoru, Qərbi Azərbaycan İcmasının Hüquq Komissiyasının sədri Zahid Cəfərov mövzunun hüquqi aspektlərini geniş şəkildə təhlil edib. Daha sonra deputat, Milli Məclisin Asiya Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Rizvan Nəbiyev qaçqınların qayıdış hüququnun beynəlxalq müstəvidə aktuallığını diqqətə çatdırıb.

## Azərbaycanın dünyada təqdir olunan sülh gündəliyi

QAİ-nin təşəbbüsü və təşkilatçılığı ilə baş tutan beynəlxalq konfransda sülh mövzusuna diqqət çəkilməsi təsadüfi deyi. Bu mövzu hazırda dünya üçün heç vaxt olmadığı qədər aktualdır. Bu da onunla bağlıdır ki, soyuq müharibə dönəmindən sonra ayrı-ayrı regionlarda dağıdıcı müharibələr başlayıb və hazırda da davam etməkdədir.

Belə bir şəraitdə otuz il ərzində təcavüzkarlıq siyasətinə məruz qalmış Azərbaycanın sülh siyasətinə sadiqlik nümayiş etdirməsi dünya üçün bir nümunədir. Müzəffər Ordumuz 44 bgünlük müharibəni və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatını şanlı zəfərlərlə yekublaşdırıb və özünün ərazi bütövlüyünü, suverenliyini hərbi-siyasi yolla təmin edib. Dünya tarixindən bəllidir ki, müharibələrin qalib tərərfi olan dövlətlər danışıqlar masası qurulanda şərtlər diqtə edir. Azərbaycan isə qalib statusuna rəğmən, məğlub Ermənistanla sülh quruculuğuna heç bir ilkin şərt irəli sürmədən başladı. Daha dəqiq desək, müharibə başa çatandan sonra qarşı tərəfə beş bənddən ibarət sülh paketi göndərməklə bu prosesin təşəbbüskarı qismində çıxış etdi. Respublikamızın başlatdığı və ötən il avqustun 8-də Vaşinqtonda baş tutan Zirvə görüşünədək irəli apardığı sülhyaratma prosesi sırf beynəlxalq hüquqa əsaslanır. Vaşinqtonda əldə olunan razılaşmalar isə bir daha təsdiqlədi ki, dünya Azərbaycanın sülh gündəliyini təqdir edir. Vaşinqton görüşündən sonra tərəflər arasında etimad quruculuğuna start verilib. Artıq region heç vaxt olmadığı qədər sülhə yaxındır. Azərbaycanın davamlı olaraq beynəlxalq hüquqa əsaslanması sülh quruculuğu prosesinə güclü impuls verir. İndiki şəraitdə ölkəmizin təcrübəsi digər münaqişələrin həllində də bir nümunə kimi götürülə bilər.

Konfrans çərçivəsində keçirilən I panel "Davamlı sülh və qaçqınların geri qayıdış hüququ: beynəlxalq hüququn rolu" mövzusuna həsr olunub. Paneldə Milli Məclisin deputatı, ATƏT Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü Azay Quliyev moderatorluq edib. Paneldə ATƏT Parlament Assambleyasının Prezidenti (2017-2020), Gürcüstan Parlamentinin üzvü George Tsereteli, Avropa Parlamentinin üzvü, Xarici İşlər Komitəsinin və İnsan Hüquqları üzrə Altkomitənin üzvü, ATƏT Parlament Assambleyasının Demokratiya, İnsan Hüquqları və Humanitar Məsələlər üzrə Ümumi Komitəsinin sabiq sədri Naço Sançes Amor, Madrid Universitetinin professoru, Pan-Avropa İspaniyası - Beynəlxalq Pan-Avropa Birliyinin Baş katibi Karlos Uriarte Sançez və Milli Məclisin Asiya Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Rizvan Nəbiyev əsas məruzələrlə çıxış ediblər.



## Soydaşlarımızın geri qayıtmaq hüququ insan haqları məsələsidir

Konfransda "Kollektiv qayıdış və beynəlxalq hüquqda normativ boşluq" mövzusu ətrafında da geniş müzakirələr aparılıb. Panelin moderatoru Şimali Karolina-Qrinsboro Universitetinin Sülh və Münaqişə Tədqiqatları Departamentinin həmsədri professor Əli Kaan Əsgər olub. Paneldə Giresun Universitetinin professoru, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Yalçın Sarıkaya, ABŞ-ın Tennessi Texnologiya Universitetinin professoru Maykl Qanter, "Eurasiaticanews"un təsisçisi və direktoru, Milanda İtaliya-Azərbaycan Assosiasiyasının vitse-prezidenti Karlo Marino, tanınmış jurnalist və geopolitika üzrə şərhçi, "Tovuzdan Qarabağa: Cənubi Qafqazda müharibənin hər tərəfli təhlili" kitabının müəllifi Malik Əyyub Sumbal çıxış ediblər.

Tarixən indiki Ermənistan ərazisindən zorla çıxarılan azərbaycanlıların yurd yerlərinə qayıtmaq istəkləri də beynəlxalq hüquqa əsaslanır. Kollektiv qayıtmaq hüququ bir neçə beynəlxalq konvensiya ilə tanınır. Qərbi Azərbaycan İcması ötən yüzillikdə dəhşətli deportasiyalar nəticəsində yurd yerlərindən qovulan soydaşlarımızdan formalaşıb. Təəssüf doğuran haldır ki, Ermənistandakı bəzi qüvvələr soydaşlarımızın qayıdış hüququnu yanlış bucağından dəyərləndirirlər. Guya biz bununla Ermənistana qarşı ərazi iddiaları sərgiləyirik. Halbuki Azərbaycanın hansısa bir qonşu dövlətə qarşı ərazi iddiaları yoxdur. Soydaşlarımızın geri qayıdış hüququ isə sırf insan haqları məsələsidir.

*Mübariz FEYİZLİ*

# 10 milyard dollarlıq sərmayə proqramı

## Asiya İnkişaf Bankı Cənubi Qafqazda dayanıqlı inkişafa maliyyə dəstəyi göstərəcək

Asiya İnkişaf Bankının (AİB) Özbəkistanın Səmərqənd şəhərində keçirilən 59-cu İllik Toplantısı mühüm iqtisadi qərarların verilməsi ilə yadda qalıb.

AİB 2030-cu ilə qədər Cənubi Qafqaz və Mərkəzi Asiyada regional bağlılığa, təmiz enerjiyə, rəqəmsal transformasiyaya və inklüziv infrastruktura 10 milyard dollardan çox sərmayə yatırmağı planlaşdırıldığını bəyan edib.

Bankın prezidenti Masato Kanda bildirib ki, Cənubi Qafqaz Mərkəzi Asiya ilə birlikdə gələcək regional əməkdaşlıq üçün böyük potensiala malikdir. Yenilənmiş tərəfdaşlıq proqramına əsasən, bu region ölkələrində yeni texnologiyaların tətbiqini və rəqəmsal iqtisadiyyatı təşviq edən layihələrin icrası və rəqəmsal transformasiyanın dərinləşməsi üçün inklüziv infrastrukturlara 10 milyard dollardan çox sərmayə yatırılacaq.

### Cənubi Qafqaz-Mərkəzi Asiya sərmayə platforması

Qeyd edək ki, Asiya Bankı cari ilin əvvəllərindən başlayaraq Cənubi Qafqaz-Mərkəzi Asiya coğrafiyasında birgə kommunikativ əməkdaşlığı dəstəkləmək məqsədilə maliyyə dəstəyi göstərməkdədir. "Özəl Kapitalın Cəlb Edilməsi göstəricisinin hazırlanması və tətbiqinə dəstək" layihəsi çərçivəsində ilk maliyyə transı təsdiqlənib və icra olunacaq layihələrin maliyyə-investisiya dəyəri 100 milyon dollardan artıqdır. Növbəti layihələrin dəyəri isə AİB Qrupunun növbəti qərarları zamanı bəlli olacaq. Ümumilikdə, AİB-in Cənubi Qafqaz, Asiya və Sakit okean regionunda 2030-cu ilə qədər 17 Dayanıqlı İnkişaf Məqsədinə nail olmaq üçün böyük hədəf prinsipləri nəzərdə tutulub ki, burada sosial xidmətlər və dayanıqlı məşğulluq, müasir infrastrukturlar, keyfiyyətli səhiyyə, təhsil xidmətlərinin təşkili, iqtisadi inkişaf təşviqləri, iqlim dəyişikliyinə qarşı mübarizə, istehlak və istehsalın təşviqi, "yaşıl inkişaf" hədəfləri, nəqliyyat və logistika sistemlərinin modernləşdirilməsi, institisional tədbirlər və s. mühüm prinsiplər yer alır. Həmin hədəflərə nail olmaq üçün layihənin əhatə olunduğu ölkələrin hər birində davamlı proqram və layihələrin maliyyələşdirilməsinə irihəcmli maliyyə tələb olunur. Həmin 10 milyard dollar həcmində kapital portfeli bu hədəflərin gerçəkləşməsini təmin edəcək.

### CAREC proqramı üzrə maliyyə dəstəyi göstəriləcək

Masato Kanda bildirib ki, Asiya-Sakit okean və Xəzər regionu ölkələrinin dayanıqlı və inklüziv artımına kömək edən transsərhəd əlaqələrin gücləndirilməsi perspektiv fəaliyyət planının əsas prinsiplərindən biridir. Müasir sarsıntılar sərhədləri aşaraq enerji bazarları, təchizat zəncirləri və rəqəmsal şəbəkələr vasitəsilə sürətlə ötürülür və bir sıra icmalara zərbə vurur. Bu problemlərin həlli milli sərhədləri aşan əlaqələndirilmiş regional tədbirlər tələb edir. Ona görə də, AİB yeni baxış strategiyası çərçivəsində təkcə Asiya regionu ölkələrini deyil, Cənubi Qafqaz da daxil olmaqla böyük bir coğrafiyada inkişaf arxitekturasının qurulmasına davamlı dəstək verməyə çalışacaq. Eləcə də, Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) Proqramı vasitəsilə bölgədə davamlı inkişafı təmin edəcək digər layihələrin maliyyələşdirilməsi nəzərdə tutulur.

CAREC proqramı çərçivəsində 2030-cu ilə qədər inteqrasiya olunmuş ticarət gündəliyinin ikinci mərhələsi olan "Rəqəmsal ticarətin sürətləndirilməsi" layihəsinin həyata keçirilməsi üçün texniki şərtlər razılaşdırılıb və təsdiqlənib. Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Monqolustan, Pakistan, Çin, Tacikistan, Türkmənistan və Özbəkistanı əhatə edəcək layihəni AİB-in yaxın tərəfdaşı olan Cənubi Koreyanın Elektron Asiya və Bilik Tərəfdaşlığı Fondu maliyyələşdirəcək. Layihə ticarət sənədlərinin rəqəmsallaşdırılmasını, rəqəmsal ticarət üzrə model qaydalarını, prinsip və standartlarını, sərhədlərarası məlumat axınını idarəetmə sisteminin və ödənişlərin təşviqini nəzərdə tutur.

Yeni layihənin icrası e-ticarət qaydalarının asanlaşması sayəsində böyük bir coğrafiyada rəqəmsal habın formalaşmasını təmin etməklə Azərbaycanın CARES ölkələri ilə ticari-logistik mübadilələrini də genişləndirəcək. Xatırladaq ki, 2024-cü ildə Azərbaycan ilə CAREC-ə üzv dövlətlər arasında ticarət dövriyyəsi 5 milyard dolları ötüb və CAREC ölkələrinin Azərbaycanın ümumi xarici ticarətində payı 12 faizə çatıb. Eyni zamanda, respublikamız təşkilata üzv olan ölkələrinin iqtisadiyyatına birbaşa 4,2 milyard dəyərində investisiya yatırıb, qarşı tərəfin də sərmayələrində artımlar baş verib. Hədəflər isə böyükdür və daha böyük ticarət dövriyyələrinin əldə olunmasıdır. Həmin hədəflərin reallaşması sayəsində Azərbaycan- CAREC ölkələri arasında ticarət, investisiya imkanları da xeyli artmış olacaq.




Asiya Bankının toplantısında Azərbaycan nümayəndə heyəti də təmsil olunub. Maaliyyə naziri Sahil

### Azərbaycanın AİB ilə tərəfdaşlığının prioritetləri

Babayevin rəhbərlik etdiyi Azərbaycan heyəti ilə AİB Qrupu arasında keçirilən görüşlərdə strateji prioritetlər, həyata keçirilən layihələr, qlobal iqtisadiyyatın üzləşdiyi çağırışlara uyğun yeni əməkdaşlıq yolları və əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı ətraflı müzakirələr aparılıb. S.Babayev Asiya İnkişaf Bankının Seçki Qrupu çərçivəsində formalaşmış səmərəli əməkdaşlıq platformasının üzv ölkələr arasında koordinasiyanın gücləndirilməsinə və ortaq inkişaf prioritetlərinin təşviqinə mühüm töhfə verdiyini bildirib. Azərbaycan və AİB ilə tərəfdaşlığın qarşılıqlı etimad və konstruktiv əməkdaşlıq prinsipləri əsasında davamlı şəkildə inkişaf etdiyini vurğulayıb.

Tədbirdə Azərbaycanın Orta Dəhliz çərçivəsində artan tranzit və logistika potensialına diqqət çəkilib və bu istiqamətdə AİB-nin dəstəyi müsbət qiymətləndirilib. Hazırda nəqliyyat sektorunda rəqəmsallaşmanın tətbiqi ilə əlaqədar həyata keçirilən layihələrə AİB-nin dəstəyinə də toxunulub.

Qeyd edək ki, AİB-nin 2025-2029-cu illəri əhatə edən Azərbaycan üzrə Ölkə Tərəfdaşlıq Strategiyasında dayanıqlı, şaxələndirilmiş və rəqabətqabiliyyətli iqtisadi artımın dəstəklənməsi, yaşıl keçidin sürətləndirilməsi və regional inteqrasiyanın gücləndirilməsi əsas prioritetlər kimi müəyyən edilib.

### "Maneəsiz Rəqəmsal Dəhliz"in maliyyə təchizatçısı

Asiya Bankı Orta Dəhlizin maliyyə donoru kimi də aktiv təchizatçı olacaq. Regional əməkdaşlığın genişləndirilməsində Orta Dəhlizin strateji əhəmiyyətinin artdığını diqqətə çatdıran M. Kanda qeyd edib ki, Yaxın Şərq böhranı bu yolun əhəmiyyətini daha da artırır. ADB infrastruktura investisiyalar və siyasi islahatların həyata keçirilməsi vasitəsilə dəhlizi dəstəkləyir. Bu, logistik əlaqələrin yaxşılaşdırılması, iqtisadi fəallığın stimullaşdırılması və ölkədə turizmin inkişafı üçün edilir. Gələcəkdə bank planlaşdırılan avtomobil və dəmir yolu layihələrinin köməyi ilə ölkənin nəqliyyat dəhlizlərinin modernləşdirilməsinə dəstəyi daha da gücləndirmək niyyətindədir.

Bank həmin bu dəhlizin altmodeli olan vahid multimodal xidmət - Rəqəmsal Ticarət Koridorunun (Digital Trade Corridor) yaradılmasını maliyyələşdirib ki, bu da "Avrasiya Nəqliyyat Marşrutu"nun rəqəmsallaşmasında və "Maneəsiz Rəqəmsal Dəhliz" sisteminin qurulmasında mühüm rol oynamaqdadır. Asiya Bankının kapital portfelinin böyük bir hissəsinin Çinin maliyyə donorluğu əsasında formalaşmasını nəzərə alsaq "Bir kəmər, bir yol"un müəllifi kimi rəsmi Pekinin Orta Dəhlizdəki rəqəmsal infrastrukturların müasirləşməsinə böyük marağını başa düşmək mümkündür. Bu baxımdan AİB-in dəhlizi üzərində yerləşən ölkələrə, o cümlədən Azərbaycana dəmir yollarının rəqəmsallaşmasına dəstəyi də prioritet təşkil edir.

*E.CƏFƏRLİ*

# Cənubi Qafqaza qarşı hibrid plan...

Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı sülh prosesinə qarşı yenidən hücumlar intensivləşir. Maraqlıdır ki, rollar dəyişməsə də konturlar dəyişir - artıq bəyanatlar və ya siyasi jestlərdən daha fərqli aspektlərə müraciət edilir. Söhbət Qərb platformalarını, diaspor şəbəkələrini və indi isə göründüyü kimi, Rusiyadan axan maliyyə resurslarını belə əhatə edən təsir infrastrukturundan gedir. Azərbaycan mediası, “Minval.az” saytı bu məsələnin üzərinə işıq salıb. “Baş rolda” tanış simadır - separatizmi dəstəkləyən korrupsioner, keçmiş Beynəlxalq Cinayət Məhkəməsinin prokuroru Luis Moreno Okampo. Ortaya çıxan video görüntülərdə o, Bakıya qarşı kampaniyada iştirakını faktiki olaraq təsdiqləyir. Bundan əlavə, Okampo birbaşa Avropa qurumları daxilində bir komandanın və əlaqələrin mövcudluğundan bəhs açır, keçmiş Aİ xarici işlər naziri Cozef Borreldən və ətrafından danışır.

## Rusiyadan olan ermənilər maliyyə ayırır...

Maraqlı detallardan biri bu anti-Azərbaycan fəaliyyətin maliyyə qaynağıdır. “Minval.az” tərəfindən əldə edilən yeni video görüntülər kampaniyanın xüsusi yaradılmış “Rusiya-Ermənistan nümayəndələri qrupu” adlı fond tərəfindən dəstəkləndiyini göstərir. Məqsəd informasiya təzyiqi üçün davamlı və uzunmüddətli maliyyələşdirməni təmin etməkdir.

Okampo açıq şəkildə etiraf edir ki, əvvəlcə Ermənistan mənbələrindən vəsait alıb, lakin sonradan daha strukturlaşdırılmış kanallar tətbiq edilib. O, xüsusilə, Rusiyada yaşayan və beynəlxalq bizneslə məşğul olan erməni diasporunun varlı nümayəndələrindən danışır. Sxemin fundamental aspekti isə anonimlikdir. O deyir ki, maliyyə qaynağı rolunu oynayanlar Rusiya ilə problem yaşamaq istəmirlər və buna görə də qapalı mexanizmlər vasitəsilə fəaliyyət göstərməyə üstünlük verirlər.

## Okamponun özünüifşası...

Videoyazı isə bütün detalları ortaya qoyur:

Luis Moreno Okampo: “Domenech”

Naməlum həmsöhbət: “Domenech?”

Luis Moreno Okampo: “Bəli.” Mən [...], heç vaxt adları xatırlamağı öyrənməmişəm, üzr istəyirəm.”

Naməlum həmsöhbət: “Bəs bu sizin işə götürdüyünüz birisidirmi?”

Luis Moreno Okampo: “Devesa”

Naməlum həmsöhbət: “Devesa”

Luis Moreno Okampo: “Devesa”

Naməlum həmsöhbət: “Devesa. Amma sən...”

Luis Moreno Okampo: “Ermənilərdən pul aldım.”

Naməlum həmsöhbət: “Bəli.”

Luis Moreno Okampo: “Deməli, əvvəllər ermənilər, mən...”

Naməlum həmsöhbət: “ABŞ-da?”

Luis Moreno Okampo: “Xeyr, pul Rusiyadakı bir ermənidən idi. Onlar Rusiya ilə problem yaşamaq istəmirlər, onlar üçün ən vacib şey anonimlikdir.”

Naməlum həmsöhbət: “Yaxşı. Bəs söhbət Rusiya xaricindəki ruslardan, yoxsa Rusiya daxilindəki ruslardan gedir?”

Luis Moreno Okampo: “Onlar xaricə səyahət edirlər; onların maraqları hər yerdədir, mütləq Rusiya daxilində deyil. Bəziləri - bəli, hamısı deyil. Amma deyərdim ki, bu, məxfi şəkildə baş verir.”

Luis Moreno Okampo: “Əvvəlcə bunu pulsuz etdim. İlk hesabat pulsuz hazırlanıb. Sonra Beynəlxalq Cinayət Məhkəməsində (ICC) məhkəmə iddiası qaldırmaq üçün Amerika fondundan dəstək aldım. Bundan sonra sosial media kampaniyasını demək olar ki, pulsuz həyata keçirdim. İndi isə daha davamlı bir kampaniyanı maliyyələşdirmək üçün fond yaradan bir qrup Rusiya ermənisi var.”

Naməlum həmsöhbət: “Bəs layihəniz nə qədər davam edəcək?”

Luis Moreno Okampo: “Heç bir fikrim yoxdur. Çünki hazırda... erməni məsələsində bunu maliyyələşdirən qrup var. Və may ayına qədər öhdəliklərimiz var, [...] amma mənim nə iş gördüyüm...”

Naməlum həmsöhbət: “Bundan əlavə, Ermənistandakı azlıq da?”

Luis Moreno Okampo: “Xeyr, maliyyələşdirən bir qrup...”

Naməlum həmsöhbət: “[...]. Bəli, bəzi varlı ermənilər...”

Naməlum həmsöhbət: “Bəs onlar nə edirlər?”

Luis Moreno Okampo: “Çünki onlar ermənidirlər. Çünki onlar ermənidirlər.”

Naməlum həmsöhbət: “Onlar hökumətin, yoxsa QHT-nin bir hissəsidirlər? Mənim kimi insanlardır, yoxsa nə?”

Luis Moreno Okampo: “Xeyr, xeyr, xeyr. Bilirsiniz nə var? Onlar Rusiyada yaşayırlar.”




Beləliklə, faktlar üzə çıxır. Ən əsas ehtimal olunan maliyyələşdirmə mənbələrindən biri əvvəllər işğal altında olmuş Azərbaycan ərazilərində qanunsuz fəaliyyətləri dəstəkləməkdə ittiham olunan iş adamı Samvel Karapetyan ola bilər. Mövcud məlumatlara görə, Karapetyan işğal dövründə işğalın nəticələrini möhkəmləndirmək strategiyasının bir hissəsi olan Qarabağa kənardan köçürülmə və infrastruktur layihələrinin maliyyələşməsində iştirak edib. Karapetyanla yanaşı, hazırda Bakıda təcridxanada olan Ruben Vardanyanın da bu işdə

## Karapetyan və Vardanyan...

iştirakı şübhəsizdir ailəsi Bakıya qarşı yönəlmiş kampaniyaya dəstək vermək üçün fond ayırıb. Beləliklə, ortada olan materiallar göstərir ki, mövcud “təcrübələr” aradan qalxmayıb, sadəcə transformasiya olunub. Əvvəllər söhbət fiziki mövcudluğa və “yerində faktlar”ın yaradılmasına yönəlmişdisə, indi diqqət informasiya və siyasi təzyiqə keçib. Pul, media, siyasi əlaqələr və beynəlxalq institutların birgə işlədiyi bütöv bir sistem formalaşdırılıb.

## Regional sabitlik hədəfdə...

Okamponun son tarixlər və öhdəliklər barədə öz etirafı xüsusi diqqət çəkir - o, açıq şəkildə komandasının “ən azı may ayına qədər” maliyyələşdirildiyini bildirir ki, bu da kampaniyanın planlaşdırılmış xarakterini göstərir. Vurğulamaq lazımdır ki, may ayı Ermənistanda parlament seçkiləri ilə bağlı seçki kampaniyasının son mərhələsidir. Bu fonda baş verənlər sadəcə xaricdən edilmiş informasiya hücumu kimi görünmür, əksinə seçki prosesinə və ölkənin daxili işlərinə birbaşa müdaxilə cəhdidir. Bunu təsdiq edən fakt isə əvvəllər yayılan görüntülərdə Okamponun oğlu Tomasın bu kampaniyanın məqsədlərindən birinin Ermənistanın baş naziri Nikol Paşinyanı devirmək olduğunu etiraf etməsidir. Bu isə bütövlükdə regional sabitliyə qarşı yönəlmiş və dərin kök salmış bir sistemin varlığından xəbər verir. Qərb institutlarından, Rusiyadan edilən maliyyə axınlarından və diaspor strukturlarından istifadə bu kampaniyanın çoxqatlı təbiətindən xəbər verir.

**SADİQ**

# İkinci müharibə fazası Hörmüzdə...

## Boğaz uğrunda mübarizə: tərəflər qarşılıqlı şəkildə xəbərdarlıq etdi

Yaxın Şərqdə müharibə yeni mərhələyə keçə bilər. Bu dəfə “müharibə meydanı” rolunu Hörmüz boğazı oynayır. Belə ki, ABŞ ilə İran arasında təkliflərin mübadiləsi nəticəsiz yekunlaşdığı üçün bütün diqqət körfəzə yönəlib. Tərəflərin ortaq mövqeyə gələ bilmədiyi Hörmüz müəmması onları yenidən qarşı-qarşıya gətirib. Xatırladaq ki, fevral ayından münaqişə başlayandan bəri təxminən 20.000 dənizçi və 2.000 gəmi ərazidə qalıb.

Bazar ertəsi günü ABŞ Amerikanın idarə olunan raket esminetsləri və ABŞ bayrağı altında üzən ticarət gəmilərinin Hörmüz boğazından təhlükəsiz şəkildə keçdiyini, bu strateji əhəmiyyətli su yolu vasitəsilə dəniz nəqliyyatını bərpa etmək üçün yeni bir əməliyyat çərçivəsində Fars körfəzinə daxil olduqlarını bildirmişdi. İran isə bu faktı təkzib etmişdi. ABŞ Mərkəzi Komandanlığı (CENTCOM) prezident Donald Trampın elan etdiyi əməliyyata istinadən verdiyi açıqlamada bildirmişdi ki, “Hərbi gəmilər hazırda Hörmüz boğazından Azadlıq Layihəsi Əməliyyatının bir hissəsi olaraq keçdikdən sonra Fars körfəzinə daxil olublar”. CENTCOM bildirib ki, “ABŞ qüvvələri ticarət gəmiçiliyi üçün tranziti bərpa etmək səylərini fəal şəkildə dəstəkləyir”.

**İran atəş açdı?**

İran İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) isə ABŞ-ın Hörmüz boğazından gəmilərin keçməsi ilə bağlı iddialarını “açıq yalan” adlandırıb. İran dövlət mediası SEPAH-ın bəyanatını dərc edərək, son saatlarda heç bir ticarət gəmisinin və ya neft tankeri”nin Hörmüz boğazından keçmədiyini bildiriblər. SEPAH xəbərdarlıq edir ki, İranın Hərbi Dəniz Qüvvələrinin təlimatlarına zidd olan hər hansı bir hərəkət “ciddi risklər daşıyır”.

Bundan başqa, Hörmüz boğazında ABŞ hərbi gəmisinə raket zərbəsi endirildiyi də bildirilib - İran donanmasının ABŞ esminesləlrinin yaxınlaşması təqdirində xəbərdarlıq atəşi açdığı deyilir. İran tərəfi bildirib ki, esminesləre “atəşkəsin pozulması təhlükələri barədə” radio xəbərdarlığı edilib - xəbərdarlıq atəşləri amerikalılara xəbərdarlıq



edildikdən sonra açılıb. Yüksək vəzifəli İran rəsmisi Reuters agentliyinə bildirib ki, Tehran Amerika hərbi gəmisinin Hörmüz boğazına girməsinin qarşısını almaq üçün ona “xəbərdarlıq atəşi açıb”. Mənbə həmçinin əlavə edib ki, hər hansı bir ziyanın dəyib-dəymədiyi bəlli deyil. Lakin CENTCOM “ABŞ Hərbi Dəniz Qüvvələrinin heç bir gəmisinə zərbə endirilmədiyini” bildirib. ABŞ-ın yüksək vəzifəli rəsmisi də “Axios”a verdiyi şərhdə bu xəbəri təkzib edib.

**Güc tətbiq olunacaq...**

ABŞ Prezidenti Donald Tramp isə ABŞ gəmilərinə hücum ediləcəyi təqdirdə “İranı yer üzündən siləcəyinə” bildirib. “Fox News”a müsahibəsində Tramp Tehranın “Azadlıq” layihəsi çərçivəsində Hörmüz boğazında gəmiləri müşayiət edən Amerika gəmilərinə hücum edəcəyi təqdirdə ağır nəticələrlə qarşılaşacaqlarına işarə edib. Tramp bildirib ki, ABŞ “Azadlıq” layihəsinə qarşı hər hansı əks həmləyə güc yolu ilə cavab verəcək.

**ABŞ “yox” dedi...**

Bu arada, ABŞ və İran arasında danışıqlar da dalana dirənib. Mayın 4-də Pakistanın xarici işlər naziri İshaq Dar iranlı həmkarı Abbas Əraqçi ilə telefon danışığı aparıb. Pakistan Xarici İşlər Nazirliyinin açıqlamasına istinadla xəbər verir ki, nazirlər “regional vəziyyət və Pakistanın regionda sülh və sabitlik üçün davam edən diplomatik səyləri” ətrafında fikir mübadiləsi aparıblar. Telefon danışığı İran Xarici İşlər Nazirliyinin Tehranın müharibəyə son qoymaq üçün yenidən işlənmiş 14 maddəlik təklifi ilə bağlı ABŞ-nin cavabını nəzərdən keçirdiyini bildirməsindən bir neçə saat sonra baş tutub. İran nüvə məsələsinin son təklifinin bir hissəsi olmadığını bildirib və iki tərəf arasında daimi atəşkəs əldə edildikdən sonra çətin məsələnin danışıqların ikinci mərhələsində müzakirə edilməsi variantını irəli sürüb.

Vasitəçiliklə tanış olan Pakistan mənbələri Anadolu agentliyinə bildiriblər ki, ABŞ İslamabad vasitəsilə İrana verdiyi cavabda İranın nüvə proqramı ilə bağlı razılaşmanı daimi atəşkəslə birləşdirib.

ABŞ isə irəli sürülən təklifləri qəbul etmir. Cavab Pakistan vasitəsilə Tehrana çatdırılıb. İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəqai bildirib ki, Pakistan vasitəsilə ABŞ-dan cavab alınıb. Bəqainin sözlərinə görə, təqdim olunan detallar hazırda nəzərdən keçirilir. O əlavə edib ki, bu mərhələdə müharibənin tamamilə dayandırılması və sona çatdırılması müzakirə edilir.

**Müharibə qızışsa - böyük şirkətlər alternativ axtarışında...**

Hörmüzdə yeni müharibə perspektivi isə qlobal daşımaçılıqla bağlı məsələdə böyük çətinliklər yaradıb. Artıq bir sıra şirkətlər alternativ axtarışına çıxıblar. Məsələn, dünyanın konteyner daşımaları üzrə ən böyük gəmiçilik şirkəti olan “Mediterranean Shipping Company” (MSC) Hörmüz boğazından yan keçəcək və Avropanı Körfəz limanları ilə birləşdirəcək yeni marşrut planlaşdırır. Xarici media yazır ki, şirkət Yaxın Şərqdəki təhlükəsizlik və təchizat böhranın təsiri səbəbindən Avropa ilə Yaxın Şərq arasında yeni logistika marşrutu yaratmağa hazırlaşır. MSC yeni marşrutu Yaxın Şərqdəki mövcud çətin şərtlərə cavab olaraq hazırlayıb.

Şirkətin planına görə, yeni marşrut üzrə daşımalar mayın 10-da Belçikanın Antverpen limanından başlayacaq, Almaniya, İtaliya, Litva və İspaniya kimi Avropa limanlarını əhatə edəcək. Gəmilər Süveyş kanalından keçərək Qırmızı dənizə çıxacaq və Səudiyyə Ərəbistanındakı Ciddə və Kral Abdullah limanlarına çatacaq. Yüklər buradan quru yolu ilə Səudiyyə Ərəbistanının şərqindəki Dammam şəhərinə daşınacaq. Dammamdan kiçik gəmilər Əbu-Dabi, Dubayın Cəbəl Əli Limanı, Bəhreyn, İraq və Küveyt də daxil olmaqla Körfəz bölgəsindəki əsas limanlara yollanacaq.

Ekspertlərin fikrincə, ABŞ-İran müharibəsi və Hörmüz boğazında məhdudiyyətlər gəmiçilik şirkətlərini alternativ və daha bahalı quru yolu ilə dəstəklənən marşrutlar axtarmağa məcbur edib. Bölgədəki digər əsas operatorlar da oxşar quru yolları həlləri hazırlamağa başlayıblar. Lakin bu cür marşrutların logistika xərclərini və karbon emissiyalarını artırdığı bildirilir.

Bu arada ABŞ və Körfəz ərəb ölkələri İranın Hörmüz boğazını bağlamasına görə BMT Təhlükəsizlik Şurasının (TŞ) qətnaməsini hazırlayırlar. Bu barədə ABŞ-nin BMT-dəki səfiri Mayk Uolts açıqlayıb. Uolts bildirib ki, bu həftə qətnamə ilə bağlı danışıqlar aparılacaq. O əlavə edib ki, ABŞ yeni qətnaməni Bəhreynlə birlikdə Küveyt, Qətər, Birləşmiş Ərəb Əmirlikləri və Səudiyyə Ərəbistanının dəstəyi ilə hazırlayır. Qətnamə İrandan ticarət gəmiçiliyinə hücumları və boğazda gəmiçiliyə rüsum tətbiq etməyi və dəniz minalarını yerləşdirməyi dayandırmağı və minaların yerini açıqlamağı tələb edəcək.

**P.İSMAYILOV**

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# COP29-dan WUF13-ə...




## Gələcək şəhərlər üçün qlobal dialoq platforması

Ekologiya və ətraf mühitin mühafizəsi gələcəyimiz üçün həyati əhəmiyyət daşıyan geniş və çoxşaxəli bir sahədir. Bu sahədə atılan hər bir kiçik addım belə planetimizin sağlamlığına böyük təsir göstərə bilər. Müasir dövrdə sənayeləşmə, urbanizasiya və texnoloji inkişafın sürətlənməsi nəticəsində təbii resursların həddindən artıq istismarı, havanın, suyun və torpağın çirklənməsi kimi problemlər getdikcə daha kəskin hal alır. Bütün bunlar da ekosistemlərin tarazlığını pozaraq canlı aləmin davamlılığı üçün ciddi təhlükələr yaradır.

Meşələrin qorunması, biomüxtəlifliyin saxlanılması və iqlim dəyişikliyi ilə mübarizə kimi qlobal məsələlər də ekologiyanın əsas istiqamətləri arasında yer alır. Bu problemlərin həlli üçün beynəlxalq əməkdaşlıq, elmi tədqiqatlar və innovativ texnologiyaların tətbiqi mühüm rol oynayır. İnsan və təbiət arasında harmoniyanın bərpası yalnız ekoloji balansın qorunmasına deyil, həm də insanların fiziki və psixoloji rifahına müsbət təsir göstərir.

**WUF13 COP29-un məntiqi davamı kimi...**

Məlumdur ki, paytaxtımız bu il Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) ev sahibliyi edəcək. COP29 sübut etdi ki, Azərbaycan Vətən müharibəsindən sonra regionda yaratdığı reallıqlar fonunda etibarlı tərəfdaş və məsuliyyətli ev sahibi kimi, məsələlərin həllində nəticəyönümlü fəaliyyət ortaya qoymağı bacarır. Bu baxımdan, WUF13-ü COP29-un məntiqi davamı kimi, beynəlxalq ictimaiyyətin respublikamıza artan etimadı və etibarı olaraq dəyərləndirə bilərik. Həm COP29, həm də WUF13 göstərir ki, ölkəmiz bu gün nəinki regional, o cümlədən də qlobal məsələlərin həllində faydalı dialoq məkanına çevrilib və bu proses davamlılığını qoruyub saxlayır.

**WUF13-ün ekologiya gündəliyi...**

WUF13 və ekologiya mövzusu müasir şəhərlərin gələcəyi, insan həyatının keyfiyyəti və təbiətlə harmoniyanın qorunması baxımından da olduqca aktual və düşündürücü bir istiqamət kimi ön plana çıxır. Sürətlə urbanizasiya olunan dünyada şəhərlər təkcə iqtisadi və sosial mərkəzlər deyil, eyni zamanda ekoloji tarazlığın ya qorunduğu, ya da ciddi şəkildə pozulduğu əsas məkanlara çevrilməkdədir. Bu baxımdan WUF13 kimi qlobal tədbirlər daha dayanıqlı gələcək üçün ortaq düşünməyə vadar edir.

**İnsan davranışları dəyişmədən ekoloji strategiya uğur qazana bilmir**

Məlumdur ki, şəhərlərin böyüməsi ilə paralel olaraq yaşıllıqların azalması, hava çirklənməsinin artması, su ehtiyatlarının qeyri-davamlı istifadəsi və tullantıların idarə olunmasında problemlər var. Həmin problemlər ekoloji tarazlığı ciddi şəkildə sarsıtdığı üçün WUF13 çərçivəsində bu məsələlərin yalnız texniki deyil, həm də sosial və mədəni aspektlərinin müzakirə olunması xüsusi əhəmiyyət daşıyır. Çünki insan davranışları dəyişmədən heç bir ekoloji strategiya tam uğur qazana bilmir və bu səbəbdən şəhərlərdə ekoloji maarifləndirmə, yaşıl enerji həlləri və davamlı nəqliyyat sistemləri kimi mövzular eyni dərəcədə vacib hesab olunur.

Ekologiya ilə bağlı əsas çağırışlardan biri də şəhər mühitində karbon izinin azaldılması və iqlim dəyişikliklərinə qarşı dayanıqlılığın artırılmasıdır. Belə ki, betonlaşmanın artdığı, təbii landşaftların daraldığı və istilik adası effektinin gücləndiyi müasir şəhərlərdə atılan hər bir addım böyük dəyişikliklər yarada bilər. WUF13 kimi qlobal platformalar bu dəyişikliklərin müzakirəsi üçün ideal zəmin yaradır.

**WUF13 yalnız beynəlxalq müzakirə platforması deyil!**

Şəhər ekologiyası yalnız problemlərin qeyd olunması ilə məhdudlaşmır, əksinə, bu problemlərin həlli üçün innovativ yanaşmaların, ağıllı şəhər texnologiyalarının, yaşıl infrastruktur layihələrinin və təbiətə əsaslanan həllərin tətbiqi ilə yeni bir inkişaf modelinin formalaşdırılmasını tələb edir.

Nəticə etibarilə, WUF13 və ekologiya mövzusu təkcə beynəlxalq müzakirə platforması deyil, həm də insanlığın öz yaşam tərzini yenidən düşünməsi üçün bir çağırışdır. Şəhərlərin gələcəyi əslində bizim bu gün qəbul etdiyimiz qərarlardan asılıdır. Təbiəti qoruyan, resursları ağıllı istifadə edən və davamlı inkişafı əsas götürən bir yanaşma seçsək, şəhərlər həm iqtisadi güc mərkəzi, həm də ekoloji tarazlığın qorunduğu yaşıl məkanlar kimi inkişaf edə bilər.

*Yeganə BAYRAMOVA*


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti üzrə hazırlanmışdır**


# Oğurlanmış həyatlar...

## İnsan alveri qlobal bəlalardan biridir

Müasir dünyanın ən ağır problemlərindən olan insan alveri minlərlə şəxsin həyatını məhv edən cinayət növüdür. Bu problem sanki görünməz zəncirlər vasitəsilə minlərlə insanın həyatını məhdudlaşdıran, onların azadlığını, hüquqlarını və gələcəyini əlindən alan qlobal bir bəla olaraq cəmiyyətlərin qarşısında dayanır. İnsan alveri yalnız müəyyən regionlara aid olmayıb, demək olar ki, bütün dünyanı əhatə edən təhlükəli bir cinayət şəbəkəsinin nəticəsi kimi getdikcə daha mürəkkəb və gizli formalar alır.

Bu amansız sistemin qurbanları çox vaxt aldadılaraq daha yaxşı həyat, yüksək maaşlı iş və təhlükəsiz gələcək vədləri ilə öz ölkələrindən uzaqlaşdırılır. Sonra isə məcburi əmək, cinsi istismar, dilənçilik və digər qeyri-insani şəraitdə işləməyə məcbur edilərək şəxsiyyətləri və ləyaqətləri kobud şəkildə tapdalanır. Bütün bunlar isə insan hüquqlarının ən kobud pozuntularından biri hesab olunur.

Dünyanın əksər ölkələrində insan alverinə qarşı mübarizə aparılır. Həmin cinayətə qarşı mübarizə üçün beynəlxalq səviyyədə anlaşma, protokol, dövlətlərarası qarşılıqlı yardım sənədləri, konvensiyalar imzalanır. Həmin sənədlərdə vurğulanır ki, bu cinayətə qarşı mübarizə aparmaq üçün dövlətlərin qarşılıqlı yardımlaşması vacibdir.

Azərbaycanda da insan alverinə qarşı mübarizə geniş vüsət alıb. Bununla bağlı respublikamızda hüquqi-normativ baza müəyyən edilib. Yeri gəlmişkən, bu gün İnsan Alverinə Qarşı Mübarizə Günü kimi qeyd edilir. Prezidentin 2004-cü il 6 may tarixli sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı” hazırlanıb. Daxili İşlər Nazirliyi, Beynəlxalq təşkilatların dəstəyi ilə hər il mayın 6-sı “İnsan Alverinə Qarşı Mübarizə Günü” kimi qeyd edilir.

**İnsan alveri hesab olunan hallar**

Avropa Şurasının “İnsan alverinə qarşı mübarizə haqqında” 16 may 2005-ci il tarixli Varşava Konvensiyasında “insan alveri” anlayışı belə təsbit olunub: İnsan alveri dedikdə, hədə-qorxu və ya zor tətbiq etməklə, yaxud başqa cür məcbur etməklə qaçırma, dələduzluq və ya aldatma yolu ilə, vəzifədən və ya şəxsin köməksiz vəziyyətindən sui-istifadə etməklə şəxslərin istismar məqsədləri üçün cəlb edilməsi, daşınması, ötürülməsi, gizlədilməsi və ya qəbul edilməsi başa düşülür.




Yeri gəlmişkən, Azərbaycan da bu Konvensiyaya qoşulub və sənəd 11 may 2010-cu ildə təsdiq edilib.

**Kimlər insan alverinin qurbanı olur?**

BMT-nin Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsinin hesabatında deyilir ki, insan alveri qurbanlarının 72 faizini qadınlar və qızlar təşkil edir. Lakin, eyni zamanda, müdafiəsiz oğlan uşaqları da cinayətkar şəbəkələrin toruna düşürlər.

Dilənçiliklə məşğul olanlar, səfil həyat tərzi sürənlər, kimsəsiz, baxımsız, təhsildən qərəzli şəkildə yayınan uşaqlar, narkotik vasitələrdən və psixotrop maddələrdən asılılığı olan şəxslər insan alverinin potensial qurbanlarıdır.

**Qurbanın normal həyata qayıtması üçün...**

İnsan alverinin qurbanına çevrilmiş şəxslərin müdafiəsi insan və vətəndaş hüquq və azadlıqlarına dair qanunvericiliyimizin və Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələlərin tələbləri rəhbər tutulmaqla təmin edilir. İnsan alveri qurbanlarının normal həyat tərzinə qaytarılması - reinteqrasiyası sosial reabilitasiya proqramları çərçivəsində həyata keçirilir. Sosial reabilitasiya insan alveri qurbanlarına hüquqi yardımın göstərilməsi, onların təhsillərinin davam etdirilməsi, psixoloji, tibbi və peşə reabilitasiyası üçün tədbirlər görülməsi, həmin şəxslərin iş və yaşayış sahəsi ilə təmin edilməsi imkanlarından istifadə olunmasını nəzərdə tutur.

İnsan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə qanunvericiliyə müvafiq olaraq dövlət büdcəsi və digər mənbələr hesabına Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğdə müavinət ödənilir.

**Necə mübarizə aparmalıyıq?**

Hər şeydən əvvəl maarifləndirmə tədbirlərinin artırılmasına ehtiyac var. Bu cinayətlə mübarizənin yollarından biri də qadın və uşaqların hüquqi və sosial müdafiəsinin gücləndirilməsi, insan alverinə şərait yaradan sosial problemlərin həllinə yönəldilmiş proqramların hazırlanması və həyata keçirilməsidir. İnsan alverinin potensial qurbanlarının ictimai faydalı əməyə cəlb edilməsi, onların məşğulluğunun təmin edilməsi vacib şərtdir.

Təkcə cəmiyyətdə deyil, potensial qurbanlar arasında da maarifləndirmə və təbliğat işinin təşkili mütləqdir. Qurbanlar onları gözləyən təhlükə, müdafiə tədbirləri, hüquqi baza barədə məlumatlı olmalıdırlar. Və ən əsası, təhsildən yayınan uşaqların aşkar edilməsi, onların təlim və tərbiyəsinə diqqət edilməsi çox vacibdir. Cəmiyyətin qazandığı hər bir yeniyetmə bir qurbanın azalması deməkdir.

*Yeganə BAYRAMOVA*

## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov və təşkilatın kollektivi Suraxanı Rayon İcra Hakimiyyətinin məsul əməkdaşı, ərazi partiya təşkilatının sədri, veteran YAP üzvü

**FƏTULLAYEV NAZİM HÜSEYNALI OĞLUNUN**

vəfatından kədərləndiyini bildirir, ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5231**
**Sifariş: 601**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova